# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

05-06 (123-124) 30 mart 2019-cu il — İctimai-siyasi qəzet


## *İlham Əliyev Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan “Bakmil” stansiyasında yaradılan şəraitlə tanış olub*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan “Bakmil” stansiyasında yaradılan şəraitlə tanış olub.

“Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, burada 2017-ci ilin avqustundan mərhələli şəkildə yenidənqurma işlərinə başlanılıb. Bura 1970-ci ildə açılıb və 9 il "Nərimanov" elektrik deposunun platforması olub. 1979-cu ildən isə stansiya kimi fəaliyyətə başlayıb. Müasir səviyyədə yenidən qurulan stansiyanın əsas memarlıq görkəmi saxlanılaraq infrastrukturu və fasadı tamamilə yenilənib. Giriş-çıxışı birbaşa ikinci mərtəbədən olan “Bakmil” Bakı Metropoliteninin yeganə yerüstü stansiyasıdır. Yenidənqurma zamanı stansiyanın fəaliyyətini dayandırmamaq məqsədilə təmir-bərpa prosesi mərhələlərlə aparılıb. Yalnız ötən ilin avqustundan işlərin son mərhələsində sərnişinlərin stansiyadan istifadəsinə günün müəyyən saatlarında məhdudiyyətlər qoyulub. Stansiyada monolit dəmir-beton konstruksiyalı sərnişin platforması inşa edilib ki, bu da əvvəlkindən daha etibarlı, davamlı və uzunömürlüdür. Stansiyanın təmirdən sonra ən mühüm yeniliyi sərnişinləri birbaşa ikinci mərtəbədə - platforma səviyyəsində qəbul etməsidir ki, bunun sayəsində də birinci mərtəbə yalnız xidməti sahəyə çevrilib.



Bundan başqa, əhəmiyyətli yeniliklərdən biri də açıq hava şəraitində yerləşən stansiya yolunun çətirlə örtülməsidir. Platforma boyunca bütün yol sahəsini əhatə edən çətir sərnişinləri və qatarları yağışdan qorumaqla yanaşı, burada gecə vaxtlarında qatar saxlanılmasına da imkan yaradır. Stansiyada bütün kommunikasiya xətləri təzələnib, yanğın təhlükəsizliyi ilə bağlı ən son texnologiyalara uyğun yeniliklər tətbiq edilib. Gözləmə zalında yeni asma tavan, müasir işıqlandırma və informasiya-məlumat sistemləri, turniketlər quraşdırılıb.

Stansiyanın ətrafında abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb.

### *Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təminatının yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 5,0 (beş) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 mart 2019-cu il.

## Azərbaycanın Müdafiə naziri BMT Baş Katibinin müavini ilə görüşüb

Amerika Birləşmiş Ştatlarında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov BMT Baş Katibinin müavini - BMT-də Sülhməramlı Əməliyyatlar Departamentinin rəhbəri cənab Jan Pyer Lakrua ilə görüşüb.

Cənab J.P.Lakrua Azərbaycanın indiyədək sülhməramlı əməliyyatlarda, xüsusilə Əfqanıstanda həyata keçirilən missiyada fəaliyyətlərini və beynəlxalq təhlükəsizliyə dəstəyin davamı olaraq Cənubi Sudan Respublikasında Azərbaycan hərbçilərinin iştirakını yüksək qiymətləndirib.



General-polkovnik Z.Həsənov BMT-nin Sülhməramlı Əməliyyatlarına töhfə verən dövlətlərin Müdafiə nazirləri səviyyəsində keçiriləcək görüşdə iştirak etməkdən məmnunluq hissi keçirdiyini vurğulayıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verərək Ermənistanın BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə məhəl qoymamasını BMT Baş Katibi müavininin diqqətinə çatdırıb.

Müdafiə naziri bildirib ki, Azərbaycan münaqişənin sülh yolu ilə həllinə sadiqdir, lakin, eyni zamanda, ölkəmiz BMT-nin xartiyasına uyğun olaraq, öz torpaqlarını istənilən vasitə ilə azad etmək hüququnu özündə saxlayır.

Görüşdə tərəflər ölkəmizin BMT-nin sülhməramlı əməliyyatlarda iştirakının perspektivləri barədə də geniş fikir mübadiləsi aparıblar.

AZƏRBAYCAN VETERANI

# Respublika Veteranlar Təşkilatında “Gənclər bizim bu günümüz, həm də sabahımızdır” mövzusunda tədbir keçirilib

Martın 14-də Respublika Veteranlar Təşkilatının inzibati binasında Gənclər və İdman Nazirliyinin, Ağsaqqallar şurasının nümayəndələrinin, müharibə, əmək və Silahlı Qüvvələr veteranlarının, ziyalıların, gənclər təşkilatının, müəllimlərin, şagirdlərin və media nümayəndələrinin iştirakı ilə “Gənclər bizim bu günümüz, həm də sabahımızdır” mövzusunda tədbir keçirilib.






Tədbirin keçirilməsində məqsəd ölkəmizdə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi işini gücləndirməkdir.

Tədbiri giriş sözü ilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov açaraq təşkilatın fəaliyyəti barədə geniş məlumat verib, bu mövzuda keçirilən tədbirlərin ənənəvi hal aldığını diqqətə çatdırıb. O, gənclərmizin vətənpərvərlik ruhunda tərbiyə edilməsində ziyalıların, ağsaqqalların və veteranların bugünkü fəaliyyətini yüksək qiymətləndirib.



C.Xəlilov 1997-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Gənclər Gününün təsis edildiyini və Ulu Öndərin gənclərə həmişə böyük qayğı, sevgi ilə yanaşdığını diqqətə çatdırıb. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin gənclərə yüksək etimad göstərməsini, onların hərtərəfli inkişafı üçün böyük işlər gördüyünü vurğulayıb.

C.Xəlilov gənclərin təhsilə yiyələnməsinin vacibliyini, hər bir sahədə gənclərin üzərinə düşən məsuliyyəti xüsusi qeyd etdi. O, Azərbaycan gəncinin əsl vətənpərvərliyini, Vətən, xalq üçün canından keçməyə daim hazır olduğunu, bunu Aprel döyüşlərində və Naxçıvan əməliyyatlarında sübut etdiklərini diqqətə çatdırdı. C.Xəlilov: “Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin əksəriyyəti gənclərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər. Aprel döyüşləri və ötən il keçirilən uğurlu Naxçıvan əməliyyatı bizim gücümüzü, peşəkarlığımızı göstərdi. Biz bu əməliyyat nəticəsində uzun illər işğal altında qalan torpaqları işğalçılardan azad etdik. O torpaqlarda - Lələtəpə, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının dağlarında Azərbaycan bayrağını ucaltdıq. Bu, böyük tarixi qələbədir”.

Gənclər və İdman nazirinin müavini İntiqam Babayev də öz növbəsində bu cür tədbirlərin əhəmiyyətindən danışdı. İ.Babayev veteranları canlı tariximiz adlandırıb, gənclərimizi onlardan örnək götürməyə səslədi. O, Respublikamızın bugünkü inkişafına, hər bir sahədə əldə etdiyi nailiyyətlərə nəzər saldı. İ.Babayev: “Bu gün veteran, ağsaqqal adlandırdığımız insanlar vətənimizi göz bəbəyi kimi qoruyub, azadlığımız, müstəqilliyimiz üçün çalışıblar. Onların davamçıları - Prezident İlham Əliyevin ətrafında sıx birləşən - siz gənclərin amalı azərbaycanlı adını şərəflə daşımaq, Vətənin tarixini, mədəniyyətini yaşatmaq, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini, müstəqilliyini qorumaqdır. Bu gün iftixarla qeyd edə bilərik ki, gənclərimiz Ulu öndər Heydər Əliyevin Azərbaycançılıq ideologiyasına sadiqdirlər, veteranların təcrübəsindən bəhrələnir, təhsilə, elmə yiyələnirlər. Hər bir sahədə Azərbaycanın bayrağını qürurla dalğalandırırlar”.

Respublika Ağsaqqallar Şurasının sədr müavini Bayram Yusifov Azərbaycan xalqının tolerantlıq ənənələrindən, Dağlıq Qarabağ münaqişəsinin tarixindən və mənfur erməni xislətinin xalqımızın başına gətirdiyi fəlakətlərdən söhbət açdı. Bu günümüzün və gələcəyimizin əmin əllərdə olması üçün B.Yusifov gənclərin üzərinə böyük məsuliyyət düşdüyünü bildirdi.

Digər çıxış edənlər II dünya müharibəsi veteranı İsmayıl Fərəcov, ehtiyatda olan polkovniklər Adil Haqverdiyev və Elşad Şabanov Respublikada həyata keçirilən gənclər siyasətindən,





gənclərin ölkə həyatındakı yeri və rolundan, vətənpərvər gəncliyin üzərinə düşən məsuliyyətdən danışdılar.

Tədbirdə mövzu ətrafında fikir mübadiləsi aparılıb, gəncləri maraqlandıran suallar cavablandırılıb.

AZƏRBAYCAN VETERANI

05-06 (123-124) 30 mart 2019-cu il

# Respublika Veteranlar Təşkilatında Azərbaycanda təhlükəsizlik orqanlarının yaradılmasının 100 illiyi qeyd edilib

Martın 19-da Respublika Veteranlar Təşkilatının inzibati binasında "Alyans" Xüsusi Xidmət Orqanlarının Veteranları İctimai Birliyinin, müharibə, əmək və Silahlı Qüvvələr veteranlarının, ziyalıların, gənclər təşkilatının, müəllimlərin, şagirdlərin və media nümayəndələrinin iştirakı ilə Azərbaycanda təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi munasibəti ilə tədbir keçirilib.

Tədbirin keçirilməsində məqsəd dövlətçiliyimizin, milli maraqlarımızın etibarlı qorunmasında dövlət təhlükəsizlik orqanlarının fəaliyyətinin gənc nəslə çatdırılmasıdır.







Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov xüsusi xidmət orqanlarının Azərbaycan xalqı və dövlətçiliyi qarşısındakı taleyüklü fəaliyyətindən, Ulu Öndər Heydər Əliyevin bu sahədə həyata keçirdiyi islahatlardan, prezident İlham Əliyevin milli təhlükəsizliyin hərtəfli təminatı sahəsində gördüyü işlərdən danışıb. O, Azərbaycan xüsusi xidmət orqanlarının əməkdaşlarının vətənpərvərliyini, əzmkarlığını, sayıqlığını yüksək qiymətləndirib. Bu sahədə Azərbaycanın dünyaya nümunə ola biləcəyini bildirib.



Respublika Veteranlar Təşkilatının sədr müavini polkovnik Cəlil Xəlilov xüsusi xidmət orqanlarının Azərbaycan tarixindəki rolundan, Respublikamızda milli təhlükəsizliyin hər tərəfli təminatından, şəxsiyyətin, cəmiyyətin və dövlətin milli maraqlarının qorunmasından danışıb. C.Xəlilov Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli təhlükəsizlik orqanlarının formalaşdırılmasından və xalqımızın ümummilli lideri, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin bu sahədəki fəaliyyəti barədə tədbir iştirakçılarına məlumat verib. Ulu Öndər Heydər Əliyevin dövlət strukturlarının, o cümlədən təhlükəsizlik orqanlarının inkişafı və təkmilləşməsi üçün göstərdiyi diqqət və qayğını hər zaman xatırlandığını bildirən Cəlil Xəlilov bu siyasətin Prezident İlham Əliyev tərəfindən inamla və uğurla davam etdirildiyini söyləyib. C.Xəlilov: "Heydər Əliyevin təklükəsizlik orqanlarında 25 illik fəaliyyəti dövründə qurumun yad ünsürlərdən təmizlənməsinə, milliləşmə siyasətinin aparılmasına, milli kadrların irəli çəkilməsinə geniş yer verilib. 1967-ci ildə Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə azərbaycanlının, məhz Heydər Əliyevin təyin olunması bu orqanın tarixində yeni bir səhifənin başlanğıcı olub. Milli Təhlükəsizliyin hərtərəfli təminatı sahəsində Ulu Öndər fundamental işlər gördü. Azərbaycan iqtisadiyyatının, siyasətinin, mədəniyyətinin, incəsənətinin, ümumiyyətlə ölkə həyatının elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyevin imzası olmasın".

Xüsusi xidmət orqanlarının bu günkü fəaliyyətinə nəzər salan natiq dövlətin təhlükəsizliyinin daxili və xarici sferalarda etibarlı təmin olunmasından danışıb. Cəlil Xəlilov dünya təcrübəsindən bəhrələnməklə müasir dövlətçiliyimizdə bu sahədə yüksək nailiyyətlərə imza atmış xüsusi xidmət orqanlarının aşkar və gizli iş üsulları, onun dövlət idarəçiliyində rolu, xarici xüsusi xidmət orqanları, onların Azərbaycana qarşı kəşfiyyat-pozuculuq fəaliyyəti, beynəlxalq terrorçu təşkilatlar, narkomaniya və insan alveri kimi transmilli cinayətkarlığın qarşısının alınmasındakı fəaliyyətinə nəzər salıb. O, Ermənistanın düşmənçilik siyasətinin qarşısının alınmasında xüsusi xidmət orqanlarının daim hazır olduğunu qeyd edib. Cəlil Xəlilov: "Dağlıq Qarabağ müharibəsində xüsusi orqan əməkdaşları fədakarlıqlar göstərmiş, əsl vətənpərvərlik, vətəndaşlıq nümayiş etdirmişdirlər. İnanırıq ki, bu gün gənclərimiz milli təhlükəsizliyimizin təminatı sahəsində əllərindən gələni edəcək, xüsusi xidmət orqanlarına hər cür dəstəyi və yardımı göstərəcəklər. Gənclər həyatlarını vətənə, millətə xidmətə həsr etmiş xüsusi xidmət orqanlarının əməkdaşlarından, veteranlardan örnək götürərək əsl vətənpərvər olacaqlar".

Çıxışında ölkəmizin təhlükəsizlik orqanlarının fəaliyyətindən söz açan Ş.Süleymanov ulu öndər Heydər Əliyev ilə bağlı xatirələrini bölüşüb: "Təhlükəsizlik orqanlarında fəaliyyətə başlayanda ilk görüşdüyüm şəxs Heydər Əliyev idi. Onunla görüşdüm, iki saata yaxın söhbətimiz oldu. Həmin söhbət əsnasında Heydər Əliyevin dediyi sözləri, verdiyi məsləhətləri heç vaxt unutmadım. Otuz altı illik fəaliyyətimi Ulu Öndərin məsləhətləri üzərində qurdum".

Ş.Süleymanov Ümummilli Liderin sadəliyini və qayğıkeşliyini xüsusi vurğulayıb. O, həmçinin qeyd etdi ki, Ulu Öndər kadrların təkcə xüsusi xidmət orqanları üçün deyil, digər hüquq-mühafizə orqanları üçün də yetişməsinə çalışır, bütün sahələrlə maraqlanır, Azərbaycanın, xalqımızın inkişafı üçün əlindən gələni edirdi. O, Ümummilli Liderin apardığı əməliyyatların o vaxt bütün sovet ölkələrində birinci qəbul edilən əməliyyatlardan olduğunu bildirdi.



Digər çıxış edənlər təhlükəsizlik orqanlarının fəaliyyəti cəmiyyətdə yüksək qiymətləndirildiyini, Ulu Öndər Heydər Əliyevin siyasi xəttini qətiyyətlə və uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli tərəqqisi və qüdrətlənməsi naminə görülən işlər nəticəsində Azərbaycan dünyada ən sabit, sürətlə inkişaf edən və təhlükəsizlik mühitinə malik ölkələrdən birinə çevrildiyi diqqətə çatdırıblar. Hər bir azərbaycanlının xüsusən də gənclərimiz müasir müstəqil Azərbaycanın milli mənafeyini qorumalı olduqlarını ölkəmizin inkişafı və qüdrətlənməsi üçün bütün səylərini səfərbər etməli olduqlarını vurğulayıblar.

Tədbirin sonunda "Alyans" Xüsusi Xidmət Orqanlarının Veteranları İctimai Birliyinin bir qrup əməkdaşı Respublika Veteranlar Təşkilatı tərəfindən yubiley medalı və fəxri fərmanla təltif ediliblər. Xatirə şəkli çəkdirib.

# Respublika Veteranlar Təşkilatı bütün dünyada sülhün bərqərar olunması üçün səylərini daha da artırır

***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialında Respublika Veteranlar Təşkilatının dəstəyi ilə veteranlarla tələbələrin görüşü keçirilib.***



Tədbirdə Respublika Veteranlar Təşkilatının sədr müavini polkovnik Cəlil Xəlilov, II Dünya müharibəsi veteranı İsmayıl Fərəcov, Əfqanıstan və Qarabağ müharibəsi veteranı polkovnik Elşad Şabanov, Qarabağ müharibəsi veteranı Bəhram Atakişiyev, eləcə də, universitetin müəllim və tələbə kollektivi iştirak ediblər.

Tədbirdə çıxış edən polkovnik Cəlil Xəlilov Respublika Veteranlar Təşkilatının fəaliyyəti haqqında məlumat verdi, xüsusən son illərdə Təşkilatın Respublikada gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində, dövlət siyasətinin təbliği, Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli və Ermənistanın qəsbkar, işğalçı kimi tanıdılması, dünyada sülhün və əminamanlığın qorunub saxlanması üçün həyata keçirmiş olduğu işləri diqqətə çatdırdı.

Veteranlara və Respublika Veteranlar Təşkilatına ölkə rəhbərliyinin xüsusi etimadını vurğulayan C.Xəlilov üzərlərinə düşən işin öhdəsindən layiqincə gəldiklərini bildirdi. Əhalinin sosial təminatının yaxşılaşdırılmasına dair qanun layihələrində veteranların nəzərə alınması, onların problemlərinin qısa zamanda həll edilməsi Prezident cənab İlham Əliyev tərəfindən veteranlara göstərilən diqqət və qayğının bariz nümunəsi olduğunu qeyd etdi.

Gəncləri vətənpərvər olmağa səsləyən C.Xəlilov: "Azərbaycan xalqı vətənpərvər, igid, qəhrəman xalqdır. Vətənpərvərlik bizim üçün müqəddəs amaldır. Bizə babalarımızdan qalan vətən sevgisi birliyimizin, məğrurluğumuzun təcəssümüdür.

Hər zaman xalqımızın igid oğul və qızları vətənin keşiyində dayanıb, yağı düşməndən torpaqlarımızı qoruyublar. Hər iki dünya müharibəsində, Əfqanıstan və eləcə də Qarabağ savaşlarında qəhrəmanlıqlar göstərib, azərbaycanlı adını layiqincə daşıyıblar. Əziz tələbələr, adlarını iftixarla çəkdiklərimiz qəhrəman oğul və qızlarımız hər birimiz üçün əzizdirlər. Onları unutmamalı, onların həyat və fəaliyyətləri bizlər üçün örnək olmalıdır. Vətən üçün canından keçən, həyatını vətənə həsr edən insanların fəaliyyətini öyrənib, yaşatmalı və gələcək nəsillərə ötürməliyik.



Torpaqlarımızın 20 faizi Ermənistanın işğalı altındadır. Tarixən bizə düşmənçilik edən mənfur qonşumuz Ermənistan işğalçılıq siyasətindən əl çəkmək istəmir. Erməni xalqını ölümə sürükləyən "Böyük Ermənistan" xəyalları ilə gənclərini faşizm ideologiyasında tərbiyə edir. Biz dünyada sülhü əminamanlığı, bütün dünya xalqları ilə dostluğu təbliğ etdiyimiz halda Ermənistan bunların tam əksini həyata keçirir. Qonşu dövlətlərə ərazi iddiası, düşmənçilik siyasəti ilə məkrli planlar qurur.



Azərbaycan Ordusu bizim qürur mənbəyimizdir. Gündəngünə güclənən ordumuz işğal altında olan torpaqlarımızı azad etməyə tam hazırdır. Maddi texniki təminatı və ixtisaslı kadr potensialı deyilənlərin əyani sübutudur. Aprel döyüşlərində və Naxçıvanda həyata keçirilmiş uğurlu hərbi əməliyyatlar zamanı əldə etdiyimiz qələbə düşməni və onun havadarlarını sözün əsl mənasında sarsıtdı.

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi irsi, onun Azərbaycançılıq ideologiyası ətrafında sıx birləşməliyik. Prezident İlham Əliyevin daxili və xarici siyasətinə dəstək olmalı Azərbaycanı daha da irəliyə aparmağı bacarmalıyıq. Bu missiyanı həyata keçirməkdən ötrü hər birimizin üzərinə böyük məsuliyyət düşür. Yüksək təhsilə yiyələnməli, elm-texnologiya əsrində beynəlxalq aləmdə layiqli yerimizi tutmalıyıq. Siz gənclər sahib olduğunuz ixtisasların bütün sirrlərinə bələd olmalısınız. Sizə bu yolda uğurlar və müvəffəqiyyətlər arzulayıram".

II Dünya müharibəsi veteranı İsmayıl Fərəcov keçdiyi döyüş yolundan, Azərbaycan xalqının II Dünya müharibəsində Qələbənin əldə edilməsində göstərdiyi fədakarlıqlardan danışdı. Həm ön cəbhədə igid döyüşçülərimizin, həm də arxa cəbhədə xüsusən Bakı neftçilərinin, azərbaycanlı alimlərin danılmaz əməyini tələbələrin diqqətinə çatdırdı. "Sevindirici haldır ki, bügün hər bir sahədə Azərbaycan nailiyyətlər əldə edib. Bunlar yorulmaz əməyin və tariximizdən gələn əzmkarlığın, əməksevərliyin nəticəsidir. Siz gələcəyin həkimləri, elm xadimləri olacaq dünya elminə töhvələrinizi verəcəksiniz...

Bir faktı xatırlamaq istəyirəm ki, II Dünya müharibəsində Azərbaycanda 28 hərbi hospital fəaliyyət göstəribdir. Azərbaycan həkimləri on minlərlə yaralının sağlamlığına qovuşmasında əllərindən gələni əsirgəməyiblər. Əziz tələbələr, biz veteranlar sizin bacarığınıza inanır, xalqımızın qəhrəman, əməksevər, əzmkar fəaliyyətini davam etdirəcəyinizə inanırıq".

Əfqanıstan və Qarabağ müharibələri veteranı, ehtiyatda olan polkovnik, SSRİ dövründə bir çox hökumət mükafatları ilə təltif edilən Elşad Şabanov çıxışında qəhrəmancasına döyüşən azərbaycanlılara ən yüksək fəxri adların verilməsindən, onların orden və medallarla təltif edilməsindən söz açıb.

Qarabağ müharibəsi veteranı Bəhram Atakişiyev bildirib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həmişə veteranlara diqqət və qayğı göstərib və hazırda bu ənənə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirin sonunda Cəlil Xəlilov Seçenov Universitetinin Bakı filialının tərbiyə və dərsdənkənar iş departamentinin rəhbəri Leyla Əhmədzadəyə "General Həzi Aslanov" yubiley medalını təqdim edib, Azərbaycanın layiqli müdafiəçiləri olmaq üçün tələbələrə təhsildə uğurlar, möhkəm ruh və Vətən sevgisi arzu edib.

# Respublika Veteranlar Təşkilatının Rəyasət heyətinin növbəti iclası keçirilib



Mart ayının 6 –da Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin növbəti iclası keçirilib. İclası açıq elan edən Təşkilatın sədri general-polkovnik Tofiq Ağahüseynov 2019-cu ildə görülən işlər və qarşıda duran məsələləri müzakirə edib, Təşkilatın fəaliyyətini yüksək qiymətləndirib. T.Ağahüseynov bu il cənab prezident İlham Əliyevin əhalinin sosial müdafiəsi haqqında imzaladığı sərəncamlardan danışıb. Bu qanun layihələrində veteranların nəzərə alınmasını onların hər zaman dövlətin diqqət və qayğı ilə əhatə olunduğunu bir daha sübutu olduğunu vurğulayıb.

Məruzə ilə çıxış edən Respublika Veteranlar Təşkilatın sədr müavini Cəlil Xəlilov 2019-cu ilin ilk iki ayı ərzində təşkilatın həyata keçirdiyi tədbirlər, görüşlər haqqında məlumat verdi. Gənclərin vətənpərvərlik tərbiyəsi istiqamətində işlərin daha da gücləndirilməsinin zəruriliyini, vətənpərvərlik sahəsində xüsusi proqramların hazırlanması, ali təhsil müəssisələrində gənclərlə görüşlərin keçirilməsi, veteranların sülhün, dövlətçiliyin təbliğində aktiv iştirakının təmin edilməsi və bu kimi məsələləri diqqətə çatdırdı. Həmçinin 9 May Qələbə Gününə hazırlıq, Qələbənin 75 illik yubileyinə dair tədbirlər planının layihəsinin hazırlanması və digər gündəlikdə duran məsələlər ətrafında danışdı.

Digər çıxış edənlər Respublika Veteranlar Təşkilatı fəaliyyətində dövlət siyasətini təbliğ etdiyini və təşkilatın üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəldiyini bildirdilər.

Sonda ehtiyatda olan polkovnik Nadir İsmayılovun Təşkilatın Rəyasət heyətinə üzvlüyü səsə qoyuldu və yekdilliklə qəbul edildi.

# Cəlil Xəlilov: Respublika veteranları Prezident İlham Əliyevin imzaladığı əfv Sərəncamının yüzlərlə ailəyə bəxş etdiyi sevincə qoşulur



Azərbaycan Prezidenti İlham Əliyevin "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması" haqqında imzaladığı Sərəncam ölkə vətəndaşlarına göstərilən yüksək diqqətin sübutu, humanizmin bariz göstəricisidir.

Bu sözləri Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov AZƏRTAC-a müsahibəsində söyləyib.

C.Xəlilov bildirib ki, Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə martın 16-da imzaladığı əfv Sərəncamı 431 nəfərə şamil edilib, onlardan 399-u azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsindən azad olunub. Eyni zamanda, ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş üç nəfərin cəzası müddətli azadlıqdan məhrumetmə cəzası ilə əvəzlənib.

"Sərəncam Cinayət Məcəlləsinin demək olar ki, bütün maddələri üzrə məhkum olunan şəxsləri əhatə edib. Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar dövlətimizin başçısının fəaliyyətinin ədalət, humanizm və mərhəmət prinsiplərinə əsaslandığının təzahürüdür", - deyə Cəlil Xəlilov vurğulayıb.

Təşkilatın sədr müavini Cəlil Xəlilov qeyd edib ki, Sərəncam Azərbaycanın hüquqi demokratik və humanist dəyərlərə sadiq dövlət olduğunu təsdiqlədi. Respublika Veteranlar Təşkilatı Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirir. Respublika veteranları imzalanan əfv Sərəncamını yüksək qiymətləndirir və inanır ki, əfv olunanlar Azərbaycan cəmiyyətinə layiqincə inteqrasiya olunacaq, dövlətimizin tərəqqisi naminə əllərindən gələni əsirgəməyəcəklər.

# "ORDU HAQQINDA BÖHTAN SƏSLƏNDİRMƏK DÜŞMƏN DƏYİRMANINA SU TÖKMƏKDİR"

## "Hər bir vətəndaş ordunun güclənməsi üçün əlindən gələni etməlidir"

***"Aprel döyüşləri sadəcə Ermənistana deyil, bütün dünyaya mesaj idi"***

Cəlil Xəlilov: "Əfsuslar olsun ki, İrəvan hələ də bu döyüşlərdən lazımi nəticə çıxarmayıb"

Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilovla söhbətimizdə aprel döyüşlərinin önəmini, bu döyüşlərin tarixi əhəmiyyətini şərh etməyə çalışdıq.

-Cəlil müəllim, bu il 2016-cı ilin aprel döyüşlərinin üçüncü ildönümü tamam olur. Peşəkar hərbçi kimi bu döyüşlərin əhəmiyyətini necə qiymətləndirirsiniz? Sizcə bu döyüşlər Azərbaycan və Ermənistan ordularının güc nisbəti baxımından hansı həqiqətləri ortaya çıxardı?

-Aprel döyüşlərinin ölkəmiz üçün çox böyük əhəmiyyəti var. Erməni separatçıları uzun illər ərzində ordumuz haqqında mənfi fikir formalaşdırmağa cəhd ediblər. Ermənistan bəyan edirdi ki, Azərbaycan ordusu zəifdir, onun gücü yoxdur və s. Aprel döyüşləri isə sübut etdi ki, Azərbaycan güclü orduya, yüksək psixoloji duruma və döyüş hazırlığına malikdir. Aprel döyüşləri göstərdi ki, Azərbaycan ordusu hər an işğaldakı torpaqları azad etmək qüdrətinə malikdir.

Aprel qələbəsinin digər baxımdan da mühüm nəticələri oldu. Bu, Azərbaycan ordusunun gücünü nümayiş etdirməklə yanaşı, xalqın orduya olan inamını da artırdı. Xalq bir daha əmin oldu ki, Azərbaycan ordusunda aparılan islahatlar, ordunun möhkəmləndirilməsi, güclənməsi istiqamətində görülən işlər mühüm əhəmiyyətə malikdir və bu işlər öz real səmərəsini verir.

Bu gün aprel döyüşləri nəticəsində işğaldan azad edilən ərazilərdə, Cocuq Mərcanlı kəndində Novruz bayramına hazırlıq gedir. İnsanlar yenidən Novruz sevincini öz doğma torpaqlarında böyük sevinc hissi ilə qeyd edirlər. Bütün bunlara görə biz Azərbaycan ordusuna minnətdar olmalıyıq.

-Sizcə ermənilər aprel döyüşlərindən lazımi nəticə çıxardımı? Rəsmi İrəvanın addımlarında aprel döyüşlərinin "izini" müşahidə etmək mümkündürmü?

-Əfsuslar olsun ki, ermənilər aprel döyüşlərindən lazımi nəticə çıxarmayıb. İrəvan problemin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirsə də, problemin həlli istiqamətində real addımlar atmaq istəmir. Həmişə əməli addım atmaq məqamı yetişəndə qeyri-konstruktiv mövqe nümayiş etdirir, əsassız iddialar səsləndirir. Bununla da danışıqlar prosesini pozmağa cəhd göstərirlər. Məhz Ermənistanın bu ikili siyasəti nəticəsində problemin həllinə nail ola bilməmişik.

-Sizcə aprel döyüşlərindən beynəlxalq ictimaiyyət və beynəlxalq təşkilatların da çıxartmalı olduğu hansısa nəticə varmı?

-Beynəlxalq təşkilatlar da aprel döyüşlərindən nəticə çıxarmalıdır. Anlamalıdırlar ki, əgər Qarabağ problemi beynəlxalq hüquqi normativ aktlara uyğun olaraq həll edilməsə, o zaman Azərbaycan hərbi yola işğaldakı əraziləri azad etməyə məcbur olacaq. Problemin müharibə yolu ilə həlli ehtimalını ortadan qaldırmaq üçün beynəlxalq təşkilatlar, aparıcı dövlətlər Ermənistana həm siyasi, həm iqtisadi, həm də hərbi müstəvidə təzyiq göstərməlidir.

-Cəlil müəllim, Qarabağ münaqişəsinin həll edilməmiş vəziyyətdə qalması sizcə sadəcə Azərbaycan üçün narahatlıq kəsb edir, yoxsa bu, həm də Qafqaz regionu və dolayısı ilə dünya üçün təhlükəlidir?

-Bu münaqişə yalnız Azərbaycan üçün təhlükə deyil. Bu, həm də Qafqaz regionu üçün təhlükədir. Ermənistan işğal edilmiş ərazilərdə terroristlər hazırlayır. Narkotik plantasiyalar salırlar. Beynəlxalq axtarışa verilən dünya miqyaslı bir çox cinayətkar da bu ərazidə yerləşdirilir. Suriyadan, digər ölkələrdən müəyyən qüvvələr orda yerləşdirilir.

Ermənilər işğaldakı ərazilərdə böyük vəhşiliklər törədib. Məscidləri, tarixi abidələri dağıdıb. Azərbaycan ordusu aprel döyüşləri ilə düşmənə mesaj verdi. Onları öz əsassız iddialarından, işğal siyasətindən əl çəkməyə çağırdı. Və onları başa saldı ki, bu siyasət onların özü üçün faciəvi sonluqla nəticələnəcək.

-Sizcə dünya ictimaiyyəti, aparıcı dövlətlər ermənilərin işğalçılıq siyasəti, Azərbaycan xalqına qarşı törətdikləri soyqırımlar haqqında yetərincə məlumatlıdırmı? Dünya birliyi bu məsələdə yetərincə qətiyyət sərgiləyərsə, Ermənistan işğalçılıq siyasətindən imtina edə bilərmi?

-Təbii ki, dünya ictimaiyyəti, qabaqcıl dövlətlər erməni vəhşiliyindən, onların işğalçılıq siyasətindən, bu siyasətin qorxunc nəticəsindən xəbərdardılar. Xocalı soyqırımını dünyanın bir çox ölkəsi tanıyır. Bütün dünya erməni vəhşiliyindən xəbərdardır. Odur ki, bunlara istinad edərək Ermənistana hər cür təzyiq göstərə bilərlər. Onlar erməniləri məcbur edə bilərlər ki, işğaldakı əraziləri tərk etsin. Hətta onlara Azərbaycan xalqına qarşı törətdikləri soyqırımını etiraf etməyə də vadar edə bilərlər. Ermənistan iqtisadi blokadadadır. Lakin buna baxmayaraq, xarici ölkələrdən aldıqları ianələri də silahlanmaya sərf edir. Halbuki öz vətəndaşlarının bu pula çox böyük ehtiyacı var. Bütün bunlar bir daha onu göstərir ki, Ermənistan işğalçılıq siyasətindən əl çəkmək niyyətində deyil. Bu isə o deməkdir ki, proseslər bu şəkildə davam edərsə, Qarabağ məsələsində son sözü yenə də Azərbaycan ordusu deyəcək.

-Cəlil müəllim, son vaxtlar bəzi şəxslər xaricdə oturub Azərbaycan ordusu, Müdafiə Nazirliyi, onun müxtəlif strukturları haqqında böhtan xarakterli fikirlər səsləndirməkdədir. İddia edirlər ki, guya orduda rüşvətxorluq, intizamsızlıq mövcuddur, mənəvi-psixoloji durum qeyri-qənaətbəxşdir və s. Sizcə Azərbaycan ordusunun bu şəkildə hədəf alınmasına səbəb nədir?

-Bu fikirlər insanları çaşdırmağa, xalqın orduya olan inamını zəiflətməyə hesablanıb. Azərbaycan ordusu öz sözünü deyən ordudur. Azərbaycan ordusunun qapıları Azərbaycan ictimaiyyətinin üzünə açıqdır. Azərbaycan vətəndaşı ordu, ordudakı vəziyyət barədə hər an informasiya almaq imkanına malikdir. Tez-tez "açıq qapı"lar keçirirlər. Valideynlərlə əsgərlərin, komandirlərin görüşləri olur. Əgər hər hansı bir vətəndaş nədənsə narazıdırsa, nəyisə nöqsan hesab edirsə, bu nöqsanın aradan qaldırılmasını tələb edə bilər. Lakin ordudan xəbəri, məlumatı olmayan insanların ordunu müzakirə etməsi doğru deyil. Onlar düşməni sevindirən mənfi xarakterli, əsassız məlumatlar yaymaqla ordumuzun imicinə ziyan vururlar.

Orduya, onun imicinə ziyan vurmaq olmaz. Ordumuzun döyüş hazırlığına, onun qələbə ruhuna sevinmək lazımdır. Onun güclənməsi üçün hər bir Azərbaycan vətəndaşı əlindən gələni etməlidir.

Bu düşmən dəyirmanına su tökməkdir. Əgər həqiqətən də orduda hər hansı nöqsan varsa, bu ordunun rəhbərliyi, komandanlığı mövcuddur və həmin şəxslər bu nöqsan barəsində ordunun rəhbərliyinə müraciət edə bilər. Bu məlumatları dəqiqləşdirmək əvəzinə bu informasiyaları ictimailəşdirmək yanlışdır.

***S. ƏLİYEV***

AZƏRBAYCAN VETERANI

# "Vətənpərvərlik təbliğatı baxımından əyani vəsaitlər əhəmiyyətli rola malikdir"



İbrahim Quliyev: "Bu təklifin reallaşması faşizmə qarşı mübarizədə həlak olan soydaşlarımızın ruhuna ehtiram baxımından da arzuedilən olardı".

Gələn il faşizm üzərində qələbənin 75 illiyi bütün dünyada qeyd ediləcək. Bu tarixi qələbədə Azərbaycan xalqının göstərdiyi fədakarlıqlara diqqət çəkən Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov ölkəmizin bu müharibədə iştirakçılığını, habelə göstərdiyi qəhrəmanlıqları əks etdirən muzeyin yaradılması təklifi ilə çıxış edib. C.Xəlilovun fikrincə, belə bir muzeyin yaradılması Azərbaycanın bütün bəşəriyyət qarşısındakı tarixi xidmətlərini əyani şəkildə nümayiş etdirməklə yanaşı, gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsi baxımından da mühüm rol oynaya bilər.

Bu təklifə münasibət bildirən Milli Aviasiya Akademiyası hüquqşünaslıq kafedrasının müdiri, hüquq elmləri doktoru, professor İbrahim Quliyev bu təklifin ölkəmizin hərbi vətənpərvərlik tərbiyəsi baxımından yüksək qiymətləndirdiyini vurğuladı: "Düşünürəm ki, bu, dəyərli və səmərəli təklifdir. 25 ildən artıqdır ki, bizim ərazimizin 20%-i işğal altındadır. 1 milyon 200 min nəfəlik qaçqını, məcburi köçkünü olan bir ölkədə vətənpərvərlik tərbiyəsi müstəvisində işin aparılması olduqca vacibdir. Belə bir muzeyin yaradılması vətənpərvərlik təbliğatı baxımından əyani vəsait kimi də mühüm əhəmiyyət kəsb edər. Bu, həm də II Dünya Müharibəsində, faşizmə qarşı mübarizədə həlak olan soydaşlarımızın ruhlarına bir hörmət, bir ehtiram olardı. Bu səbəbdən də mən bunu çox dəyərli bir təklif hesab edirəm.

Mən ümumiyyətlə Cəlil müəllimin fəaliyyətini yüksək qiymətləndirirəm. C.Xəlilov ictimai təşkilatlar içərisində hərbi vətənpərvərlik təbliğatı baxımından böyük işlər, mühüm layihələr həyata keçirən, bu sahədə xüsusilə fərqlənən bir insandır. O, tez-tez gənclər arasında, tələbələr arasında olur, onların arasında bu yöndə çox ciddi iş aparır. Cəlil müəllim ölkə başçısının hərbi vətənpərvərlik təbliğatı ilə bağlı siyasətini praktiki olaraq həyata keçirən dəyərli insanlarımızdandır. Mən ona bu şərəfli fəaliyyətində uğurlar arzulayıram".

Seymur ƏLİYEV

# "II DÜNYA MÜHARİBƏSİ İLƏ BAĞLI MUZEYİN YARADILMASI TƏŞƏBBÜSÜNÜ DƏSTƏKLƏYİRƏM"

***Asim Mollazadə: "Azərbaycan bu müharibədə Avropa dövlətlərinin çoxundan daha artıq qurban verib".***

Xəbər verdiyimiz kimi, Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov maraqlı təşəbbüslə çıxış edib. Gələn il bütün dünyada faşizm üzərində qələbənin 75 illiyinin böyük təntənə ilə qeyd ediləcəyinə diqqət çəkən Cəlil Xəlilov, Azərbaycanın bu müharibədə iştirakçılığını əks etdirən muzeyin yaradılmasına ehtiyac olduğunu, belə bir addımın xalqımızın tarixi xidmətlərinin xatırlanması və təbliği baxımından mühüm önəm kəsb etdiyini vurğulayıb.

Məsələyə münasibət bildirən millət vəkili Asim Mollazadə sözügedən təklifi yüksək qiymətləndirdiyini, bu təklifin ölkəmizin maraqları baxımından faydalı olduğunu bildirib:

"Bu, çox yaxşı bir təşəbbüsdür. Azərbaycan həqiqətən də faşizm üzərində qələbənin əldə edilməsində misilsiz xidmətlərə malikdir.

Biz dünyaya bir daha xatırlatmalıyıq ki, bu müharibədə Azərbaycan 300 mindən artıq öz vətəndaşını itirib.

Azərbaycan nefti faşizm üzərində qələbə əldə edilməsində mühüm rol oynayıb. Azərbaycanlılar həm ön cəbhədə, həm də arxa cəbhədə böyük fədakarlıqlar göstərib, faşizm üzərində qələbənin əldə edilməsinə böyük töhfələr verib.

Çox təəssüflər olsun ki, zamanında Azərbaycanın bu qələbədəki roluna lazımi qiymət verilməyib. Amma Azərbaycanın bu qələbədəki rolu, onun əldə edilməsində ortaya qoyduğu fədakarlıqlar inkar edilməzdir.

Azərbaycan bu müharibədə Avropanın bir çox ölkəsindən daha çox qurban verib. II Dünya müharibəsində bunca qurbanlar verən, faşizm üzərində qələbənin əldə edilməsində böyük əmək sərf edən Azərbaycan üçün qələbənin ildönümlərinin qeyd edilməsi, görülən işlərin yada salınması mühüm önəm kəsb edir".

Seymur ƏLİYEV



# "Xalqımızın bu qələbəyə verdiyi töhfələr onun bəşəriyyət qarşısındakı tarixi xidmətidir"



***Firdovsiyyə Əhmədova: "Azərbaycanın II Dünya Müharibəsindəki qəhrənmanlığını əks etdirən ekspozisiyaya böyük ehtiyac var".***

Gələn il Azərbaycan və dünyada II Dünya Müharibəsinin başa çatmasının 75 iliyi qeyd olunacaq. Saytımıza açıqlamasında bu mühüm tarixi yubileyə diqqət çəkən Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov maraqlı təkliflə çıxış edib. C.Xəlilov Azərbaycanın II Dünya Müharibəsindəki iştirakçılığını, bu müharibədə göstərdiyi qəhrəmanlığı əks etdirən muzeyin yaradılmasının zəruriliyini bildirib.

-Firdovsiyyə xanım, öncə Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilovun II Dünya Müharibəsində Azərbaycan xalqının göstərdiyi qəhrəmanlıqları əks etdirən muzeyin yaradılması təklifi ilə bağlı fikrinizi bilmək istərdik. Sizcə belə bir muzeyin yaradılması nə dərəcədə faydalı olar?

-II Dünya Müharibəsində Azərbaycan xalqının əməyi, verdiyi töhfələri özündə əks etdirən ekspozisiyaya böyük ehtiyac var. Vaxtilə Azərbaycan Milli Tarix Muzeyində bütün Azərbaycan tarixini əks etirən ekspozisiyalarda II Dünya Müharibəsinə aid ekspozisiya salonları da var idi.

Lakin xeyli müddətdir ki, binada məkan məhdudluğu üzündən faktiki olaraq Azərbaycan Xalq Cümhuriyyətindən sonrakı dövr, yəni 100 illik tariximizi özündə əks etdirən ekspozisiya fəaliyyət göstərmir. Amma kifayət qədər eksponatlar muzey fondunda saxlanılır. Bu baxımdan, müstəqilliyimiz dövründə də əsgərlərimizin Azərbaycan uğrunda, ərazi bütövlüyümüz uğrunda böyük qəhrəmanlıqlar göstərdiyi halda, onların da qəhrəmanlığını özündə əks etdirən ekspozisiya mövcud deyil. Bunların da olmasına böyük ehtiyac var.

-Faşizmin yalnız Azərbaycan və SSRİ üçün deyil, eləcə də bütün dünyanı hədəf aldığını nəzərə salsaq, söyləmək mümkündürmü ki, Azərbaycan xalqının faşizmə qarşı mübarizədə verdiyi qurbanlar həm də bütün bəşəriyyətin rifah və qurtuluşuna xidmət edib?

-Təbii ki, faşizm üzərində qələbə ümumbəşəri bir hadisədir. Faşizm iqrçilikdir. Biz özümüz də ermənilərin təcavüzündən əziyyət çəkən bir xalqıq. Azərbaycan xalqının nümayəndələri ümumbəşəri təhlükəyə qarşı mübarizədə canlarından keçmiş, həmçinin ölkənin bütün iqtisadiyyatı, bütün resursu bu mübarizəyə cəlb edilmişdi. Birmənalı şəkildə Azərbaycanın yanacağı – Bakı nefti qələbə əldə etməyin rəhni idisə, digər tərəfdən Azərbaycan xalqı, onun hər bir fərdi bütün məhrumiyyətlərə dözərək özünün bütün imkanları ilə qələbənin əldə edilməsinə çalışmışdır.

Azərbaycan xalqının bu böyük müharibədə qələbəsini əks etdirən muzeyin yaradılması təqdirəlayiq olardı. İstərdim ki, Azərbaycanın 100 illik tarixi ərzində xalqımızın göstərdiyi hərbi şücaətləri əks etdirən muzey yaradılsın.

-Firdovsiyyə xanım, zaman-zaman bu cür fikirlər də səsləndirilir ki, guya sovet dönəmində xalqımızın istər ön, istərsə də arxa cəbhədə göstərdiyi fədakarlıqlar Azərbaycanın deyil, daha çox sovet imperiyasının marağına xidmət edib. Sizcə verilən itkilərə, qazanılan qələbələrə, göstərilən fədakarlıqlara bu cür münasibət bəsləmək, onların önəmini və əhəmiyyətini azaltmaq nə dərəcədə doğrudur?

-Bəli, bu cür fikirlər mövcuddur. Bəziləri hesab edir ki, SSRİ dövründə tökülən qanlar, verilən qurbanlar Azərbaycanın maraqlarına xidmət etmirdi. Bu, düzgün yanaşma deyil. Çünki həmin dövrdə Azərbaycan müttəfiq bir respublika kimi SSRİ-nin tərkibində idi. SSRİ-ni də ümumi vətən bilərək bu müharibəyə yollanmışdılar. Nəzərə alaq ki, faşizm sadəcə sovet dövlətinə yönələn bəla deyildi. Bu bəla bütün bəşəriyyəti, eləcə də Azərbaycanın özünü təhdid edirdi. Odur ki, Azərbaycan xalqının faşizmə qarşı apardığı mübarizə həm onun özünün, həm də bütün bəşəriyyətin mənafeyi, təhlükəsizliyi və rifahı baxımından mühüm önəm kəsb edirdi və odur ki, bu mübarizənin əhəmiyyətini əsla azaltmaq olmaz.

-Sizcə ölkəmizin II Dünya Müharibəsində göstərdiyi qəhrəmanlıqları əks etdirən muzeyin yaradılması gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi işinə də kömək edə bilərmi?

-Əlbəttə. Dünyaya yönəlik faşizm təcavüzünün qarşısının alınmasında Azərbaycanın oğlan və qızları öz canlarından keçdilər. Əgər onlar öz həyatları hesabına belə bir möhtəşəm tarix yaradıblarsa, bu tarix onların öz vətənində də öz əksini tapmalıdır. İndiki gənc nəsil də bu cür qəhrəmanlıq, rəşadət nümunələrindən örnək götürməlidir.

-Faşizm üzərindəki qələbədə Azərbaycan xalqının müstəsna əməyinin olmasına baxmayaraq, adətən bu qələbə ilə bağlı nəhəng dövlətlər daha təntənəli yubileylər keçirir, sanki belə bir təəssürat yaranır ki, digər dövlətlərin bu müharibədəki əməyi ikinci dərəcəli rola malik olub. Sizcə zamanla Azərbaycanın da bu məsələdə öz haqlı, layiqli yerini alması tarixi ədalətin bərpası baxımından da məqsədəuyğun olmazmı?

-Şübhəsiz. Hesab edirəm ki, II Dünya Müharibəsinin qalibləri yubileyləri qeyd edərkən dünyanın böyük dövlətlərin başçıları bu tədbirlərdə iştirak edirsə, bu qələbənin qazanılmasında mühüm xidmətləri olan Azərbaycanın, onun nümayəndələrinin də bu qələbəyə öz böyük töhfəsini verən bir xalq kimi orada yer almağa daha çox haqqı var. Bu səbəbdən də biz ilk növbədə özümüzdə II Dünya Müharibəsində Azərbaycan xalqının hərbi şücaətini əks etdirən hərbi ekspozisiyanı bir muzey formasında təşkil etməliyik. Bundan sonra xaricdən gələn qonaqlarımıza faşizmə qarşı mübarizədə verdiyimiz töhfəni təqdim edə bilək. Amma çox yaxşı olardı ki, 100 illik tarix ərzində hərbi şücaətimizi özündə əks etdirən muzey yaradılsın və II Dünya Müharibəsinə aid eksponatlar da bu muzeydə yer alsın".

Seymur ƏLİYEV

# Gəncədə təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyinə və ulu öndər Heydər Əliyevin təhlükəsizlik siyasətinə həsr olunan tədbir keçirilib

Gəncədə Azərbaycanda təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyinə, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin uğurlu dövlətçilik və təhlükəsizlik siyasətinə həsr olunan tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX), Gəncə Şəhər İcra Hakimiyyətinin və "Alyans" Azərbaycanın Xüsusi Xidmət Orqanlarının Veteranları İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirin iştirakçıları əvvəlcə Heydər Əliyev Mərkəzinin qarşısında Ümummilli Liderin abidəsi önünə əklil qoyublar. Sonra iştirakçılar Mərkəzdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov tədbirdə çıxış edərək hər bir ölkənin inkişafında təhlükəsizliyin və sabitliyin mühüm rol oynadığını vurğulayıb. Qeyd edib ki, sabitliyin və təhlükəsizliyin təmin olunması, cinayətkarlığa qarşı mübarizənin düzgün və ciddi şəkildə aparılması Azərbaycanın inkişafına mühüm töhfə verən amillərdir. Bu gün Dövlət Təhlükəsizliyi Xidməti milli maraqlarımızın və təhlükəsizliyin etibarlı təminatı istiqamətində həyata keçirdiyi uğurlu fəaliyyəti ilə tarixinin şərəfli səhifələrini yazır, Vətənin və xalqın təhlükəsizliyinin qorunmasında müstəsna xidmətlər göstərir.

N.Bayramov yubiley münasibətilə təhlükəsizlik orqanlarının bütün şəxsi heyətini, veteranları, Ulu Öndərin şərəfli məktəbinin davamçılarını təbrik edib, onlara müqəddəs işlərində uğurlar arzulayıb.

DTX-nin Gəncə Şəhər İdarəsinin rəisi Əli Əliyev bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin qayğısı ilə daim təkmilləşən Dövlət Təhlükəsizliyi Xidməti hazırda inkişafının yeni mərhələsinə qədəm qoyub. DTX-nin keçdiyi tarixi yola nəzər salan Ə.Əliyev qeyd edib ki, müstəqilliyini əzmlə möhkəmləndirən, demokratik prinsiplərə əsaslanan sivil, hüquqi dövlət quruculuğu yolunda dönməzliyini sübuta yetirən Azərbaycan Respublikası bu gün dövlətçilik ənənələrini daha da inkişaf etdirərək etibarlı gələcəyi, əbədiyaşarlığı üçün sarsılmaz təməl yaradıb. Bu sahədə üzərinə mühüm vəzifələr düşən DTX Azərbaycan xalqının ən böyük nailiyyəti olan dövlət müstəqilliyinin qorunub saxlanılmasında və daha da möhkəmləndirilməsində mühüm işlər görür.

Tədbirdə çıxış edən "Alyans" Azərbaycanın Xüsusi Xidmət Orqanlarının Veteranları İctimai Birliyinin sədri Şamil Süleymanov qeyd edib ki, Azərbaycanın təhlükəsizlik orqanlarının yaradılmasının 100 illiyi ilə bağlı silsilə tədbirlər ölkənin bir çox şəhər və rayonlarını əhatə edir. Bu tədbirlərin keçirilməsinin mahiyyətindən danışan Ş.Süleymanov qeyd edib ki, əsas məqsəd bölgələrdə görüşlər təşkil etmək, ümummilli lider Heydər Əliyevin təhlükəsizlik orqanlarındakı fəaliyyəti barədə gənc nəsli məlumatlandırmaqdır.



Ölkəmizin təhlükəsizlik orqanlarının fəaliyyətindən də söz açan Ş.Süleymanov ulu öndər Heydər Əliyev ilə bağlı xatirələrini bölüşərək deyib: "Təhlükəsizlik orqanlarında fəaliyyətə başlayanda ilk görüşdüyüm şəxs Heydər Əliyev idi. Onunla görüşdüm, iki saata yaxın söhbətimiz oldu. Həmin söhbət əsnasında Heydər Əliyevin dediyi sözləri, verdiyi məsləhətləri heç vaxt unutmadım. Otuz altı illik fəaliyyətimi Ulu Öndərin məsləhətləri üzərində qurdum".

Ümummilli Liderin sadəliyini və qayğıkeşliyini xüsusi vurğulayan Ş.Süleymanov deyib: "Mənə Heydər Əliyev kimi tarixi şəxsiyyətin rəhbərlik etdiyi təhlükəsizlik xidmətində çalışmaq nəsib olub. Heydər Əliyev Azərbaycanın belə bir fədakarlıq məktəbinin əsasını qoyub. Mən də bu fədakarlıq məktəbinin iştirakçısıyam. Heydər Əliyev Azərbaycan xüsusi xidmət orqanlarında milli kadrların yetişdirilməsi, təhlükəsizlik xidməti orqanının milliləşdirilməsi üçün əlindən gələni edirdi. Heydər Əliyev işini, peşəsini sevən, gördüyü işlərin nəticəsindən zövq alan şəxsiyyət idi. Ulu Öndər kadrların təkcə xüsusi xidmət orqanları üçün deyil, digər hüquq-mühafizə orqanları üçün də yetişməsinə çalışırdı. O, bütün sahələrlə maraqlanır, Azərbaycanın, xalqımızın inkişafı üçün əlindən gələni edirdi. Heydər Əliyev xüsusi xidmət orqanlarının nəhəngləri ilə bir sırada dayanırdı. Ümummilli Liderin apardığı əməliyyatlar o vaxt bütün sovet ölkələrində birinci qəbul edilən əməliyyatlardan idi".



Müharibə və Hüquq-Mühafizə Orqanları Veteranları Təşkilatının sədri Yusif Məmmədov ümummilli lider Heydər Əliyevin nadir tarixi şəxsiyyətlərdən olduğunu vurğulayaraq deyib: "Heydər Əliyev Azərbaycanın xüsusi xidmət orqanlarının inkişafı üçün misilsiz xidmətlər göstərib. Bu gün Azərbaycan xüsusi xidmət orqanı əməkdaşlarının yetişdirilməsi Heydər Əliyevin səyi nəticəsində olub. Azərbaycan xüsusi xidmət orqanlarının fəaliyyəti 1953-cü ilə qədər çox acınacaqlı vəziyyətdə idi. O vaxt Heydər Əliyevin işi də həddindən artıq ağır idi. Həmin vaxt təhlükəsizlik xidmətində rəhbər vəzifədə ermənilər və ruslar idi. Heydər Əliyevin xüsusi xidmət orqanlarında şöbə rəisi vəzifəsinə gəlməsi Azərbaycan milləti üçün böyük dönüş oldu. Belə ki, Heydər Əliyev qısa müddətdə xüsusi xidmət orqanlarına azərbaycanlıların gətirilməsinə nail oldu".

Əfsanəvi azərbaycanlı kəşfiyyatçı Mehdi Hüseynzadənin Sovet İttifaqı Qəhrəmanı adı almasında Heydər Əliyevin xüsusi xidmətlərini qeyd edən Y.Məmmədov bildirib: "O vaxt Heydər Əliyev Mehdi Hüseynzadə ilə bağlı bütün arxiv sənədlərini çıxarıb və onun həyatını, fəaliyyətini araşdırıb. Əks-kəşfiyyatçı Mehdi Hüseynzadənin böyük qəhrəmanlıqlar göstərməsi məhz bu araşdırmalar nəticəsində ortaya çıxdı. Məhz Heydər Əliyevin araşdırmalarından sonra Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verildi".

O vurğulayıb ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə də Azərbaycanda sabitlik yaradıb, ölkənin hərtərəfli inkişafına nail olub. Bütün bunlara görə hamımız Heydər Əliyevə minnətdarıq.

Çıxışlardan sonra Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı N.Bayramov Azərbaycan təhlükəsizlik orqanlarının yaradılmasının 100 illik yubileyi münasibətilə "Alyans" Xüsusi Xidmət Orqanlarının Veteranları İctimai Birliyinin şəxsi nişanı və fəxri fərmanı ilə təltif edilib.

Tədbirdə, həmçinin Azərbaycan təhlükəsizlik orqanlarının yaradılmasının 100 illik yubileyi münasibətilə Gəncə şəhərinin ictimai həyatında və təhlükəsizliyinin təmin edilməsində fərqləndiklərinə görə DTX Gəncə Şəhər İdarəsinin bir qrup əməkdaşı Gəncə Şəhər İcra Hakimiyyətinin fəxri fərmanına layiq görülüb.

Sonda ümummilli lider Heydər Əliyevin dövlət təhlükəsizlik orqanlarındakı fəaliyyətini əks etdirən qısametrajlı sənədli film nümayiş olunub.

# *İsrafil Məmmədovun anadan olmasından 100 il ötür*

Gəncə şəhərinin Mirzə Abbas Abbaszadə küçəsində azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun ev muzeyi yerləşir. Bu ev ona 1942-ci ildə Sovet İttifaqı Qəhrəmanı adı aldıqdan sonra verilib, O, 1946-cı ilə kimi bu evdə yaşayıb. 1985-ci ildən muzey kimi fəaliyyət göstərir. Üç otaqlı evdə İsrafil Məmmədova aid 400-ə yaxın şəxsi əşya saxlanılır.



İsrafil Məmmədovu "Azərbaycan Pəhləvanı", "Sovet bahadırı" adlandırırdılar. Bu ad o vaxtı bütün xalqın dilində əzbər, eləcə də qəzet və jurnalların birinci səhifə məqalələrinin əsas başlıqlarında idi. İ.Məmmədov İkinci Dünya müharibəsində döyüşlərdə göstərdiyi qəhrəmanlığa, şücaətə görə xalqın dilində əzbər olub. İsrafil Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı isə 1941-ci ilin noyabrın 25-də verilib. Həmin gün isə Məmmədovlar ailəsində iki qat sevinc yaşanıb.

Tədbirdə çıxış edən bacısı oğlu Füzuli Hüseynov: "1942-ci ildə İkinci Dünya müharibəsində qızğın gedən döyüşlərdə İsrafil Məmmədov ağır yaralanır. Onu hərbi hospitala göndərirlər və müalicə alıb sağaldıqdan sonra ona xidmət edən tibb bacısı ilə evlənir. Bu ailənin 1943-cü ildə əkiz qızları olur. Onlarla da bizim əlaqələrimiz uzun müddət davam etdi. Biz onlara Novqoroda gedirdik, onlar bura gəlirdi. Sonralar vəziyyət dəyişdi, qohumların bəziləri rəhmətə getdi gedişgəliş olmadı".

İsrafil Məmmədovun ev muzeyində onun bir çox şəxsi əşyaları qorunub saxlanılır. Bu şəxsi əşyalar içərisində onun ov tüfəngi, hərbi çantası, xəncəri eləcə də tapança qabı var ki, bu da muzeyə gələn ziyarətçilərin böyük marağına səbəb olur.

Çıxış edən ev muzeyinin direktoru Eldəniz Babayev muzeyə gələnlərin əksəriyyətinin gənclər olduğunu vurğulayıb, O bildirib ki, gənclər qəhrəmanla, onun həyatı və döyüş yolu haqqında maraqlanırlar. O, muzeydə İsrafil Məmmədovla yanaşı onun müasirləri, 1941-45-ci illərdə Sovet İttifaqı qəhrəmanlarının təbliğatının getdiyini bildirib.

Gəncə Şəhər Veteranlar Təşkilatının sədri



Yusif Məmmədov çıxışında bildirmişdir ki, qəhrəman vətən oğlu İsrafil Məmmədovun qəbri Xanbağında yerləşir. "Hazırda onun qəbrinin üstündə eləcədə heç bir yerdə onun heykəli yoxdu. Yalnız onun adını daşıyan 27 nömrəli orta məktəbdə onun büstü var. Respublikamızda ilk Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun heykəlinin qoyulması məqsədə uyğun olardı. "Gəncə və digər şəhərlərdə 100 illik yubleyin bütün məktəblərdə, müəssisələrdə və hərbi hissələrdə keçirilsin. Hazırda ölkəmiz müharibə şəraitindədir. Gənclər milli qəhrəmanlardan, eləcə də, Sovet İttifaqı Qəhrəmanlarından örnək götürməlidirlər."

Daha sonra tədbir iştirakçıları İsrafil Məmmədovun şəxsi əşyaları ilə tanış olub.

# Aprelin əvvəlindən müharibə veteranlarına Prezidentin aylıq təqaüdü təyin olunacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 25 fevral tarixli Sərəncamına əsasən, müharibə veteranları üçün Prezidentin aylıq təqaüdünün təsis olunması nəzərdə tutulur.



Əmək və Əhalisinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Sərəncama uyğun olaraq, aprelin əvvəlindən müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət (55 manat) əvəzinə, habelə döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə (11 manat) əvəzinə Prezidentin 80 manat məbləğində aylıq təqaüdü təyin olunacaq.

Bu da 80 min nəfərdən ibarət müharibə veteranlarına dövlət dəstəyinin əhəmiyyətli şəkildə artırıldığını göstərir. Təqaüdün ödənilməsi üçün il ərzində 80 milyon manat məbləğində əlavə vəsait ayrılacaq.

# Əlillərin avtomobillə təminatının yaxşılaşdırılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 5 milyon manat ayrılıb

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təminatının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 5 milyon manat ayrılıb.

# Şəhidlərimizin qardaşlıq məzarı üzərində yeni memorial abidə kompleksi yaradılıb

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yüzlərlə hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb. Şəhid hərbi qulluqçularımız respublikamızın paytaxtı və bölgələrindəki şəhidlər xiyabanları, habelə ailələrinin yaşadıqları ünvanların yaxınlığında yerləşən qəbiristanlıqlarda dəfn olunublar.

Bakıda "Əbədi məşəl"in alovlandığı, dövlət ziyarət protokoluna daxil olan, tarixi məkan kimi tanınan Şəhidlər Xiyabanında istiqlalımız və torpaqlarımızın toxunulmazlığı naminə həyatını qurban vermiş yüzlərlə şəhidimiz torpağa tapşırılıb. Burada yeganə qardaşlıq məzarı da mövcuddur ki, Daxili Qoşunların şəhid hərbi qulluqçularına aiddir. Belə ki, 1992-ci ilin iyul ayının 19-da Ağdərə rayonunun Aterk kəndinin (hazırda Kəlbəcər rayonunun Həsənriz kəndi, işğal altındadır) müdafiəsi uğrunda döyüşdə Daxili Qoşunların 5477 saylı hərbi hissəsinin (hazırda 17072 saylı hərbi hissə) onlarla hərbi qulluqçusu cəsurluq göstərərək son nəfəsinədək vuruşub və həlak olub. Onların bir qisminin düşmən tərəfindən yandırılmış və torpağa gömülmüş meyitlərinin qalıqları döyüş gedən ərazi işğaldan azad edilərək geri qaytarıldıqdan sonra təpələraq ön cəbhədən paytaxta gətirilib. Şəhidlərimizin meyitlərinin dəhşətli vəziyyəti onların çoxunun kimliyini müəyyən etməyə imkan verməyib. Beləliklə, Aterk (Həsənriz) şəhidlərinin meyitlərinin qalıqlarının qardaşlıq məzarında dəfn olunması qərara alınıb.

1992-ci il iyul ayının 30-da Şəhidlər Xiyabanında Aterk (Həsənriz) şəhidlərinin dəfn mərasimi keçirilib. Dəfn mərasimində Daxili Qoşunların Komandanlığını təmsil edən vəzifəli şəxslər, şəxsi heyət, şəhidlərin ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

O vaxt Aterk (Həsənriz) kəndində müvafiq abidə kompleksinin yaradılmasına dair sərəncam verilib. Müharibə gerçəkliyi və göstərilən ərazinin yenidən işğala məruz qalması səbəbindən bu sərəncam yerinə yetirilməyib.

Bir neçə il sonra qeyd olunan qardaşlıq məzarının üzərində 38 nəfər şəhidin adı həkk olunan abidə yaradılıb. Həmin adlar Aterk (Həsənriz) döyüşündə həlak olduğu və itkin düşdüyü ehtimal edilən hərbi qulluqçuların ümumi siyahısından götürülüb. Ancaq sonrakı dövrdə aparılan araşdırmalar nəticəsində müəyyən edilib ki, adları məzarüstü abidədə həkk edilən 38 nəfər hərbi qulluqçudan 2 nəfər sağdır. Həmin 2 nəfər hərbi qulluqçu Aterk (Həsənriz) döyüşü zamanı düşmən tərəfindən əsir götürülüb və sonradan geri qaytarılıb. Beləliklə, abidənin yeniləşdirilməsi zərurəti yaranıb. Bununla yanaşı, ötən illər ərzində abidənin və məzarüstü lövhənin köhnəlməsi, onun müasir tələblərə cavab verməməsi nəzərə alınaraq, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov tərəfindən yeni abidənin yaradılması təşəbbüsü irəli sürülüb. Daxili İşlər Naziri general-polkovnik cənab Ramil Usubov bu təşəbbüsü dəstəkləyərək, müvafiq işlərin görülməsinə göstəriş verib. Bununla da Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılaraq, Daxili Qoşunların şəhid hərbi qulluqçularının qardaşlıq məzarı ilə bağlı yeni layihə icra olunub. Qardaşlıq məzarı üzərində əvvəlkindən öz möhtəşəm quruluşuna və memarlıq elementlərinə görə fərqlənən müasir memorial abidə kompleksi yaradılıb.

İstedadlı və peşəkar memar Orxan Abdullayev bu layihənin müəllifidir. O, bu günədək Türkiyə və Azərbaycanda memarlıq, dizayn sahələri üzrə çalışıb.

Memorial abidə kompleksi ümumi sahəsi 26 kvadratmetr olan ərazidə layihələndirilib və mərmər platforma üzərində yerləşdirilib. Platforma 5 sm qalınlığındadır. Kompleks mərmər platforma üzərində inşa olunan ikihissəli asimmetrik mərmər lövhədən və bürünc materialından hazırlanmış 8 guşəli ulduzdan ibarətdir. İkihissəli asimmetrik lövhə ağ və qara rəngli mərmərlərdən işlənib. Lövhələrin üstündə Daxili Qoşunların emblemi və bürünc hərflərlə Aterk (Həsənriz) döyüşü haqqında məlumat həkk edilib. Həmçinin, abidənin önündə ziyarətçilər üçün mərmər meydança da düzəldilib. Ziyarət meydançası və abidə



lövhələrinin inşa olunduğu platforma 20 sm enində qara rəngli mərmərlə haşiyələndirilib. Kompleksin ətrafında abadlıq işləri də görülüb.

Bu mühüm layihənin həyata keçirilməsi şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsinə xidmət edir və Daxili Qoşunların şərəfli döyüş ənənələrinin təbliği, cəmiyyətdə hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi üçün də ictimai əhəmiyyətə malikdir.

Yalçın Abbasov

# Dövlət Yol Polis İdarəsinin Şəki Rayon Şöbəsinin əməkdaşları Qarabağ və Əfqanıstan əlilləri ilə görüş keçirdi

Şəki Şəhər-Rayon Polis Şöbəsinin Dövlət Yol Polis Bölməsinin təbliğat və təşviqat üzrə inspektoru, polis baş leytenantı Tural Niftalıyev, vətən qarşısında xidmətləri olmuş şəxsləri, xüsusilə müharibə veteranlarını yol hərəkəti təhlükəsizliyinin təbliği işinə cəlb etmək məqsədilə 25 mart 2019-cu il tarixdə, Şəki şəhər Müharibə, Əmək, Silahlı Qüvvələr Veteranlar Təşkilatında Qarabağ və Əfqanıstan əlilləri ilə görüş keçirib. Görüş zamanı, dövlət tərəfindən əlilliyi olan şəxslərə verilmiş nəqliyyat vasitələrindən istifadə zamanı




onların özlərinin və digər hərəkət iştirakçılarının təhlükəsizliyinin təmin olunması, sürücülük hüququ olmayan əlillərin ixtisaslaşmış sürücülük kurslarında təhsil almalarının vacibliyi qeyd olunub. Qarabağ və Əfqanıstan əlillərini yol hərəkəti qaydaları ilə bağlı maraqlandıran suallar cavablandırılıb.

Şəki şəhər Veteranlar Təşkilatının sədri Mustafa Əhmədov və Əfqanıstan Veteranlar Birliyinin Şəki Rayon Şöbəsinin müdiri Nazim Yusifov çıxış edərək, bu cür maarifləndirici tədbirlərin böyük əhəmiyyət kəsb etdiyini bildiriblər. Onlar həmçinin DYP əməkdaşlarına işlərində müvəffəqiyyətlər arzulayıb, tədbirin təşkilatçılığına görə minnətdarlıq ediblər.

Sonda xatirə şəkli çəkdirilib.

AZƏRBAYCAN VETERANI
9
05-06 (123-124) 30 mart 2019-cu il

## Heç kim unudulmur, heç nə yaddan çıxmır!

1941-1945-ci illər Böyük Vətən müharibəsində alman faşizmə qarşı qoçaqlıqla vuruşan cəsarətli, igid azərbaycanlı zabit Əliyev Həmid Həsən oğlu 20 iyun 1913-cü ildə Azərbaycan Respublikasının Qazax şəhərində anadan olub. Müharibədən əvvəl Gəncə şəhərində məhkəmədə hakim vəzifəsində işləyib. Böyük Vətən müharibəsi başlayanda ordu sıralarına çağırılıb. 1942-ci ildə artilleriya divizion komandirinin müavini təyin olunub. Zakavkaziya cəbhəsində vuruşub. Cəsarət və qoçaqlığına görə «За оборону Кавказа» medalı ilə təltif olunub. 1943-cü ilin yayında kapitan Əliyev Kursk şəhərinin müdafiəsində igidlik göstərib. O, həmçinin Belqorod şəhərinin faşistlərdən azad edilməsi uğrunda keçirilən hücuma kapitan Əliyev Həmid xüsusi qoçaqlıq göstərmişdi. Həmid Əliyev döyüş zamanı başçılıq etdiyi kəşfiyat dəstəsi ilə qəfildən faşist döyüşçülərinin səngərinə daxil olub yaxın əlbəyaxa vuruşmada altı düşmən döyüşçülərini məhv edib və şəxsən bir İtaliya zabitini əsir götürmüşdü.

Kapitan Əliyev Həmidin bu cəsarətli hərəkəti piyada alayının müvəffəqiyyətlə irəliləməsinə şərait yaratmışdı. Küçə döyüşlərində Həmid Əliyev ağır yaralanaraq hərbi hospitala təxliyə edilmişdi. Aldığı yaralardan müalicə olduqdan sonra yenədə ön cəbhədə vuruşan hərbi hissəyə qayıdıb. Dnepropetrovsk istiqamətində vuruşmada qoçaqlığı ilə fərqlənmişdi. 6 iyun 1944-cü ildə ön mövqedə vuruşarkən 3-cü atıcı bölmədə xüsusi qəhrəmanlıq göstərərək bir sutka ərzində az qüvvə ilə faşistlərin yeddi əkshücumlarının qabağının alınmasını təşkil etmiş, müdafiə zamanı 2 tank və çoxsaylı düşmən döyüşçüsünü məhv edilmişdi. İgidlik və qəhrəmanlığına görə 2-ci dərəcəli Böyük Vətən müharibəsi ordeni və medallarla təltif olunub.



1944-cü ildə Ukrayna frontunun 1374-cü alayında, 416-cı atıcı diviziyada partiya təşkilatının katibi seçilmişdi.

25 iyul 1946-cı ildə Hərbi şuranın əmri ilə Vladivostok şəhərinə komendant vəzifəsinə ezam edilmişdi. Demək olar ki, müharibədən sonrakı dövlətin ağır günlərində birinci azərbaycanlı idi ki, belə çox məsuliyyətli vəzifə həvalə olunmuşdu.

H. Əliyev 1949-cu ildə Vətənə-Azərbaycana qayıtdı və xalqının, Vətənin mənafeyini müdafiə etməyə davam etmişdi. O, 1951-ci ilədək Bərdə, Füzuli, Beyləqan, Əzizbəyov rayonlarında hakim işləyib.

Təəssüflər olsun ki, 9 mart 1951-ci ildə 37 yaşında Əliyev Həmid Həsən oğlu həyat yoldaşı ilə avtomobil qəzasında həlak olublar. Bu avtomobil qəzasında onların övladı sağ qalıb. Sağ qalan Əliyeva Xanım Həmid qızı 1974-cü ildə Az. Dövlət Neft və Sənaye Universitetində mühəndis-texnik ixtisasını bitirib. Hal-hazırda AZMİU-nın (Az.Memarlıq və İnşaat Universiteti) riyaziyyat kafedrasında işləyir. Nəvəsi Sadıxov Abbasəli Məmməd oğlu babasının yolunu davam edir. Ədliyyə nazirliyinin Penitensiar xidməti idarəsində zabitdir. Bu il ona polkovnik-leytenant rütbəsi verilib. Babası kimi savadlı, prinsipal və vicdanlıdır.

*Ə.M.Əliyev*
*Respublika Veteranlar Təşkilatının əməkdaşı, hüquqşunas, e.o polkovnik*

---

# Qəlbimdən başlayır Vətən

Hörmətli oxucular! Həmsöhbətim 1922-ci ildə anadan olmuş 97 yaşlı Böyük Vətən müharibəsinin birinci qrup əlili, Həsənov Osman Baxşəli oğludur.

3 fevral 2019-cu il tarixində Həsənov Osman Baxşəli oğlu ilə evində görüşüb söhbət etdik. Onun çox səmimi, ibrətamiz, nəsihətli söhbətindən məmnun olduq. Xüsusilə, dövlətimiz tərəfindən müharibə iştirakçılarına, veteranlara göstərilən qayğı və diqqətdən çox razı olduğunu, vətən uğrunda döyüşlərdə iştirak etdiyindən şərəf duyduğunu, müasir gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün bütün imkanlardan istifadə olunması barədə tövsiyələrini verdi.

Təəssüflər olsun ki, amansız ölüm gözəl insan, el ağsaqqalı, BVM iştirakçısı, Osman Həsənovu yaxaladı. O, 6 fevral 2019-cu ildə vəfat etdi. Allah rəhmət eləsin.

"Uşaqlıq illərimin məşəqqəti qurtarmamış gəncliyimin ilk addımı da odlu-alovlu, insanlara fəlakət gətirən Böyük Vətən Müharibəsi illərinə təsadüf etdi. 1941-ci ildə 19 yaşım tamam oldu. Elə həmin il müharibə məni, gəncliyimi yaxaladı. 1942-ci ildə minlərlə Azərbaycan gəncləri kimi mən də Sovet Ordusu sıralarına çağırıldım. Həmin ilin yayında 76-cı motoatıcı diviziyanın tərkibində Ukrayna cəbhəsində döyüşlərdə iştirak etməli oldum. 1942-ci ilin avqust ayında döyüşdə ağır yaralandım. Üç ay hospitalda müalicə olunduqdan sonra 1943-cü ildə təkrarən cəbhəyə göndərildim. Dnepropetrolvski ətrafında gedən döyüşlərdə bir qolumu itirdim. Qorki şəhərindəki hospitalda müalicə olundum. 1944-ci ildə Böyük Vətən Müharibəsinin əlili kimi ordudan tərxis olundum. Əlbətdə, onda biz Sovetlər İttifaqının tərkibində müxtəlif xalqların nümayəndələri ilə birlikdə Alman faşistlərinə qarşı vuruşur, vətənimizi qorumaqdan ötrü sinəmizi sipər etmişdik. Müharibənin dəhşətlərini görmüş, döyüşlərdə iştirak etmiş insanlar vətən, onun müdafiəsi, vətənpərvərliyin nə olduğunu yaxşı bilirlər. BVM-in iştirakçısı, veteranı kimi təltiflərim, orden və medallarım barədə ötən illərdə qəzetlərdə dərc olunmuşdur.

Kamil müəllim, siz ki, şahidisiniz. Dövlət tədbirinə, qələbə gününə, hərbi vətənpərvərlik tərbiyəsi ilə əlaqədar gənclərlə görüşlərə dəvət olunanda bu orden və medalları taxmağa utanardım. Sizin təkidinizlə onları taxardım. Həmişə fikirləşərdim ki, deyərlər o bununla öyünür, xidmətlərini təbliğ edir. Yeri gəlmişkən həmyerlimiz Sovet İttifaqı qəhrəmanı Mirzə Cəbiyev də təvazökarlıqdan təsadüfi hallarda Qızıl Ulduz medalını taxardı. Mən də belə insanlardan nümunə götürmüşəm. Mən həmişə belə hesab etmişəm ki, əsl vətənpərvər insan heç bir təmənna olmadan Vətəninə xidmət etməyə borcludur. Lazım gəlsə canından belə keçməyə hazır olmalıdır.

Bir əsrə yaxın keçdiyim keşməkeşli həyat yolumu - represiya, aclıq səfalət, nəhayət, müharibə illərinin dəhşətlərini nəql etməklə sizi yormaq istəmirəm. Demək istəyirəm ki, bu çətinliklər, əzab-əziyyətlər bizi sındıra bilmədi. Vətənpərvərlik, qəhrəmanlıq, igidlik nümunəsi olan Sovet İttifaqı qəhrəmanı Mirzə Cəbiyev, Ziya Bünyadov, İlya Kaverin, üç şöhrət ordenli Rəhmət Hətəmov, Ağahəsən Nəhmətov, yüzlərlə müharibə veteranları, döyüşlərdə həlak olmuş minlərlə Vətən oğulları, analarımızın, bacılarımızın, gəlinlərimizin, övladlarımızın gələcəyi naminə, faşist işğalçılarına qarşı namusla döyüşdülər, qələbəyə nail oldular. Vətən sevgisi, qeyrət, qürur, kişilik nümunəsi bizi yaşatdı. Yaşadıq ki, Vətənimizə, elimizə, obamıza sədaqətli övladlar yetişdirək. Bu estafeti gələcəyimiz olan gənclərimizə əmanət edək. Bu gün çox fərəh hissi keçirirəm ki, gənclərimiz vətən sevgisi ilə böyüyür, xoşbəxt yaşayırlar.

Çox çətinliklə də olsa, Ulu öndərimiz Heydər Əliyevin müdrik siyasəti nəticəsində xalqımız müstəqillik əldə etdi. Böyük fəxrlə deyə bilərəm ki, onun siyasi kursunu möhtərəm prizidentimiz İlham Əliyev cənabları layiqincə davam etdirir. Müstəqil respublikamızın bütün sahələrdə, sosial- iqtisadi və mədəni inkişafı, ən əsası ölkəmizin müdafiə qüdrətinin daha da gücləndirilməsi göz qabağındadır. Azərbaycan gəncləri, Vətəninə, ölkə rəhbərinə qəlbən sıx bağlıdır, sədaqətlidir, işgüzardır, bacarıqlıdır.



Doğma Azərbaycanımızın ərazi bütövlüyü uğrunda canından keçən minlərlə gənclərimizin, yüzlərlə milli qəhrəmanlarımızın adları əbədi olaraq vətənimizin igidlik salnaməsinə qızıl hərflərlə həkk olunmuşdur. Təkcə bizim Astara rayonundan 84 nəfər gəncimiz vətən uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksəlmişdir. Onlardan ikisi- Yalçın Nəsirov və Rövşən Abdullayev Azərbaycanın Milli Qəhrəmanı adını almışdır. Əsl vətənpərvərlik, qəhrəmanlıq nümunəsi budur.

Şübhəsiz ki, gənc nəslin yüksək vətənpərvərlik ruhunda yiyələnməsi xalqımızın xoşbəxt gələcəyi naminə vətənə layiqli övladların yetişdirilməsində möhtərəm prezidentimizin, ölkə rəhbərinin apardığı məqsədyönlü siyasətinin onlara göstərilən gündəlik qayğı və diqqətin nəticəsində mümkün olmuşdur. Gənclərimizin müstəqil Azərbaycan dövlətinin sosial-iqtisadi və mədəni inkişafının təmin olunmasında, ölkəmizin müdafiə qüdrətinin daha da gücləndirilməsi işində möhtərəm prezidentimizə bütün varlıqları ilə dəstək olması ona dərin məhəbbət, yüksək ehtiramı, eyni zamanda ölkə rəhbərinin gənclərə inamı və səmimi rəğbəti müstəqilliyimizin ən böyük nailiyyətidir.

2016-cı ilin aprel döyüşləri zamanı müstəqil dövlətimizin yenilməz ordusunda xidmət edən gənclərimiz qəhrəmancasına döyüşərək düşmənə, işğalçı erməni hərbi birləşmələrinə sarsıdıcı zərbələr endirdilər. Gənclərimiz sübut etdi ki, onlara göstərilən etimadı doğrultmaqla istənilən anda işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etməyə qadirdirlər.

Mən bir müharibə iştirakçısı, veteran və ağsaqqal kimi çox sevinirəm. Sevinirəm ki, gənclərimiz xoşbəxtdir, gələcəyimizi etibarlı gəncliyə əmanət edirik. Arzum budur ki, Vətən eşqi, Vətən məhəbbəti gənclərimizin qəlblərindən heç vaxt əskik olmasın. Onların qəlbi daim Vətən məhəbbəti ilə döyünsün. Qoy Vətən hər birimizin qəlbindən başlasın".

Bu ilin may ayında veteranımızın 97 yaşı tamam olacaqdır. Bu da Qələbə Gününə təsadüf edir. Doğrudur, həmsöhbətim tədbirlərə gedə bilmirdi, ancaq radio və televiziya ilə bütün tədbirləri izləyirdi...

*Söhbəti qələmə aldı:*
*Kamil Kamilov, əmək veteranı ehtiyatda olan zabit*

05-06 (123-124) 30 mart 2019-cu il

AZƏRBAYCAN VETERANI

# Qardaş qayğısı



Dost və müttəfiq ölkələr kimi Azərbaycan və Türkiyə dövlətləri tərəfindən imzalanmış müqavilə və ayrı-ayrı dövlət qurumları arasında razılaşdırılmış protokollara uyğun olaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Baş İdarəsi ildə bir neçə xəstəni Ankaradakı məşhur Gülhanə xəstəxanasına göndərmək hüququna malikdir. Həmin xəstələr Gülhanə xəstəxanasının daxili imkanları hesabına müayinə və müalicə olunurlar. Azərbaycan Respublikası Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun diqqət və qayğısı sayəsində bu dəfə həmin imkandan yararlanmaq növbəsi mənə də çatdı. Keçmiş döyüşçülərə xüsusi hörmətlə yanaşan cənab komandan veteranlardan mənim ağır xəstə olduğumu eşidən kimi təxirə salmadan müvafiq sənədlərin hazırlanması və mənim Ankaraya göndərilməyim barədə göstəriş verdi. Mənə göstərdiyi bu nəcib və həssas münasibətə görə bütün ailə üzvlərim adından Daxili Qoşunların Komandanına dərin minnətdarlığımı bildirirəm.



Öncədən onu deyim ki, qardaş Türkiyəyə gedənədək iki ilə yaxın idi ki, onkoloji xəstəlikdən əziyyət çəkirdim. 2017-ci il iyul ayının 27-də Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasında professor Rövşən Bayramov tərəfindən bağırsaq keçilməzliyindən əməliyyat olunmuşdum. Əməliyyat uğurla keçmiş, müsbət nəticələr əldə olunmuşdu. Təxminən bir il ərzində özümü rahat hiss etdim. Əmək fəaliyyətinə başladım, ictimai vəzifələrimi yerinə yetirdim, yaradıcılıqla məşğul oldum. Amma sonradan kimyəvi müalicədən imtina etdiyimə görə fəsadlar özünü göstərməyə başladı. 2018-ci ilin oktyabr-dekabr aylarında vəziyyət daha dözülmaz həddə çatdı.

Buna görə də mən, ailə üzvlərim, qohum və dostlarım Gülhanə xəstəxanasına göndərilməklə bağlı təklifi dərin razılıqla qarşıladıq. Bilirdik ki, bu xəstəxana bütün dünyada tanınır, bacarıqlı həkimlərə və hər cür imkanları olan maddi-texniki bazaya malikdir. İndiyədək xeyli sayda dövlət xadimi, iş adamı və sənətçi bu tibb ocağında müalicə alaraq fəaliyyətini davam etdirir.

Yuxarıda göstərdiyim kimi, Gülhanə xəstəxanasının uğurları haqqında müəyyən məlumatım var idi, lakin onun bu qədər böyük olduğunu təsəvvürümə belə gətirmirdim.

Gülhanə xəstəxanası İstanbulda fəaliyyət göstərən hərbi hospitallardan birinin bazasından yaranıb. Belə ki, hökumət 1941-ci ildə həmin hospitalı Ankaraya köçürmək haqqında qərar qəbul edib. Həmin dövrdə paytaxtda tələblərə cavab verən bina olmadığına görə hospital bir neçə il dəfələrlə yerini dəyişməli olub. Yalnız 1961-ci ildə Gülhanədəki bu kompleksin tikintisinə start verilib və tikinti 1971-ci ildə qismən başa çatdırılaraq ordunun istifadəsinə qəbul edilib. Burada "qismən" sözü təsadüfən işlənmir. Məsələ burasındadır ki, həmin vaxtdan inşası davam etdirilib və tikinti işi indinin özündə də aparılmaqdadır. Bugünkü vəziyyətdə Gülhanə xəstəxanası onlarla klinikanı özündə birləşdirən səhiyyə ocağıdır. Dünyada mövcud olan elə bir xəstəlik yoxdur ki, burada müalicəsi aparılmasın. Türkiyənin ən məşhur həkimlərindən bir çoxu burada çalışır və buna görə qürur hissi keçirir.

16 avqust 2016-cı ildə bu tibb müəssisəsinin tarixində yeni səhifə açılıb: hərbi hospital Silahlı Qüvvələrdən alınaraq Türkiyə Sağlıq Bakanlığının istifadəsinə verilib, Gülhanə Təhsil və Araşdırma Xəstəxanası kimi fəaliyyət göstərməyə başlayıb. Sevindirici haldır ki, son illərdə burada fəaliyyətə başlayan uzman həkimlər arasında 20-dən artıq azərbaycanlı da var. Bundan əlavə, hazırda bu nüfuzlu xəstəxanada Azərbaycandan və Qazaxıstandan göndərilmiş gənc həkimlər təcrübə keçirlər. Onlara bu şəraiti yaratdığına görə qardaş Türkiyə dövlətinə minnətdar olmalıyıq.

Müsbət məqamlardan biri də budur ki, beynəlxalq razılaşmalar əsasında Gülhanə hərbi hospitalına aid olan öhdəlikləri xəstəxana bütünlüklə öz üzərinə götürüb və buna iki ildən artıqdır ki, yüksək şəkildə əməl edir. Başqa sözlə desək, xarici ölkə vətəndaşları, o cümlədən azərbaycanlılar göndərişlər əsasında bura gələrək pulsuz müayinə və müalicə olunurlar. Elə mən də bu hüquqdan yararlanan şəxslərdən biriyəm.

DQBİ-dən göndərilmiş sənədlər o qədər dəqiq hazırlanmışdı ki, mənim harada yerləşdiriləcəyim haqqında qərar hələ mən xəstəxanaya gələnədək həll olunmuşdu. Sadəcə, "göndərişi" götürüb Onkoloji klinikaya, professor Nuri Karadurmuşun yanına getmək qalırdı.

Əlimdəki göndərişi baş həkimin köməkçisinə uzatdıqda qız əvvəl göndərişə, sonra mənə gözucu nəzər yetirib yerindən durmadan:

- Doktor, sizin qəbulunuza yabançı ölkədən gələn var, - dedi.

Qapısı yarıaçıq olan otaqdan soruşdular:

- Haradan?
- Azərbaycandan.
- Nə vaxtdan Azərbaycanı yabançı ölkə saymağa başlamısan?! Azərbaycanlılar bizim dili bir, dini bir, adət-ənənəsi bir olan qardaşlarımızdır, - deyə Nuri hocanın həlim səsi eşidildi, - Qonağı qapıda saxlama!



Baş həkimin bu xoş sözlərindən ruhlanaraq içəri daxil oldum. İlk dəfə görüşməyimizə baxmayaraq, Nuri hoca məni köhnə tanışlar kimi qarşıladı. Əvvəlcə ölkəmiz və paytaxtımız haqqında suallar verdi. Müəyyən cavablar aldıqdan sonra gəlişimin səbəbini soruşdu. Mən xəstəliyim barədə, aldığım müalicələrlə bağlı məlumat verib, əsas məqsədimi bəyan etdim.

Beləliklə, Ankaranın Gülhanə xəstəxanasında mənim müayinə və müalicəmə start verildi. Həmin proses 45 günə yaxındır ki, davam etdirilir və qənaətimə görə, müsbət nəticə verməkdədir. N.Karadurmuşun rəhbərliyi ilə gedən bu prosesdə həkimlərdən Ramazan Acar, İsmayıl Ərtürk, Birol Yıldız, habelə iç xəstəlikləri klinikasının həkimi Cevdət Furkan fəal iştirak edirlər.

Bu tibb ocağının özünəməxsus xüsusiyyətlərindən biri də budur ki, hər xəstənin yanında bir nəfərin qalmasına icazə verilir. Həmin şəxsin yatması üçün şərait yaradılır və pulsuz yeməklə təmin olunur. Beləcə, oğlum Elçin mənimlə qalaraq bu imkanlardan yararlandı.

Xəstəxananın mehmanxanaya malik olması faktı da qeyri-adi hadisədir. Özü də səliqə-sahmanı ilə seçilən çoxmərtəbəli yer eyni vaxtda beş yüzdən yaxın qonağı qəbul etmək imkanına malikdir. Burada güzəştli şərtlərlə qalan qonaqlar yeməkxanadan istifadə edəndə də müəyyən güzəştlər əldə edirlər.

Müşahidələrim zamanı bunu da yəqinləşdirdim ki, Türkiyədə çalışan tibb işçilərinin, demək olar ki, hamısı öz işinə vicdanla yanaşır, kimliyindən asılı olmayaraq, bütün xəstələrə eyni dərəcədə qayğı və diqqət göstərirlər. Bütün bu gördüklərim mənim türk qardaşlarımıza olan rəğbətimi bir az da artırdı.

Ankaraya müalicə üçün gəldiyimdən şəhəri gəzməyə, onun görməli yerləri ilə tanış olmağa imkan tapmadım. Yalnız çoxdan bəri ürəyimdə yaşatdığım iki arzunu həyata keçirdim: müalicə kursları arasındakı vaxtda müasir Türkiyənin qurucusu Mustafa Kamal Atatürkün xatirə kompleksinə gedərək onun məzarını, daha sonra Celeci Asri qəbiristanlığına baş çəkərək Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məmməd Əmin Rəsulzadənin qəbrini ziyarət etdim. Bu iki arzumu yerinə yetirməkdə mənə yardımçı olmuş Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının əməkdaşı, Azərbaycanı öz ölkəsi qədər sevən Xəlil İsmayıloğluna dərin minnətdarlığımı bildirirəm.

***Elxan Xəzər***
***Sabunçu rayon Veteranlar Təşkilatının sədri, Daxili Qoşunların Veteranlar Şurasının üzvü***

# Ömrünün 114-cü ilini yaşayan 7 övlad, 25 nəvə, 18 nəticə sahibi Gülxanım nənə

Azərbaycanın dilbər guşəsi olan Naxçıvan həm də uzunömürlülər diyarı kimi tanınır. Qədim yurdun füsunkar, gözoxşayan təbiəti, təmiz havası, suyu, qızıldan qiymətli təbii ərzaq məhsulları burada yaşayan sakinlərin ömrünə ömür qatır. Onlardan biri də 114 yaşlı Gülxanım nənədir.

Kim 100 il yaşamasa...

Muxtar respublikanın Babək rayonunun Uzunoba kəndində yaşayan Gülxanın nənə həm də qədim diyarın ən yaşlı sakinləri sırasında yer alır. AZƏRTAC-ın Naxçıvan bürosunda muxtar respublikada dərc olunan "Şərq qapısı" qəzetinin müxbiri Nail Əsgərov ilə söhbət edərkən onun barəsində müəyyən məlumatları öyrənmişdim. Ancaq əsrə meydan oxuyan qəhrəmanımızı yaxından görmək daha maraqlı idi. Bu məqsədlə həmkarımla bərabər üz tuturuq Uzunoba kəndinə. Yolboyu muxtar respublikanın abadlaşan kəndlərini gördükcə insanın ürəyi fərəhlənir. Düşünürsən ki, bir sıra məsələlərin artıq öz həllini tapdığı bu gözəl təbiətli diyarda, gözəl insanların əhatəsində 100 il yaşamasan günah sənin özündə olar...

Qısa zamanda Uzunoba kəndinə çatırıq. Şəhərdən fərqli olmayan asfalt yolla axtardığımız ünvana çatırıq. 114 yaşlı nənənin qızı Mədinə xanım bizi qonaqpərvərliklə qarşılayır, "xoş gəldin", - deyib evə dəvət edir. Gülxanım nənəni görəndə nurani çöhrəsindəki ılıq təbəssüm, üzündəki ötən ömründə yaşadığı sevincin, kədərin izləri, gizlənən qırışlar diqqətimi cəlb edir.

- Salam, Gülxanım nənə, səni görməyə gəlmişik.

- Əleykümsalam, xoş gəlmisiniz, ay bala, ayaqlarınız var olsun, buyurun, keçin əyləşin.

- Əhvalınız necədir?

- Ay oğul, əlayam desəm, yalan olar, ömrümün, günümün bu çağında tam gümrah, sağlam görünməyim qeyri-mümkündür. Ancaq, şükürlər olsun ki, səhhətimdən elə də ciddi şikayətim yoxdur. Allah bütün övladları saxlasın, uşaqlar vaxtlı-vaxtında qeydimə qalırlar, həkim lazım olanda gəlib baxır. Dövlətimiz də yaxşı pensiya ayırıb, sağ olsun dövlət başçısı ki, pensiyaları hər il artırır, çətinliyim olmur.

"Övladlarıma belə firavan yaşayışın, gözəl günlərin qədir-qiymətini bilmələrini tövsiyə edirəm"

Gülxanım nənə ilə söhbətimizi süfrə arxasında davam etdiririk. Öyrənirəm ki, 1905-ci il yanvarın 25-də dünyaya göz açan Gülxanım Allahverdiyeva neçə-neçə müharibələr görüb, qanlı-qadalı illərə şahidlik edib. Atası, 125 il ömür sürən Gülmalı kişi dövrünün şairi olub. Gülxanım nənə hələ gənclik illərindən zəhmətə qatlaşıb, qarşılaşdığı çətinliklərə təkbaşına sinə gərməyi bacarıb. Ağrılı-acılı illər nənənin xarakterini də formalaşdırıb, mənən vüqarlı, fiziki cəhətdən möhkəm, dözümlü olub. İndi o illəri belə xatırlayır:

- Gənc yaşlarımdan işgüzarlığa öyrəşmişəm. Kolxozda üzüm yetişdirmişəm, pambıq, tütün becərmişəm, halal zəhmətimlə çörək qazanmışam. Yaxşı günlərim də, yaman günlərim də az olmayıb. Həyatın ağ üzünü də, qara üzünü də çox görmüşəm. Atalarımızdan belə bir deyim var ki, ağ gün insanı ağardar, qara gün qaraldar. Elə ötən əsrin 90-cı illərində də biz naxçıvanlılar qara günləri çox gördük. Bir tərəfdən



zalım düşmənimiz torpağımıza göz dikdi, neçə-neçə mərd oğullarımız şəhid oldu, digər tərəfdən qazsız, işıqsız günlər keçirdik, yeməyə çörəyimiz, içməyə suyumuz olmadı. Hərdən qıtlıq çəkdiyimiz illər yadıma düşür, övladlarıma belə firavan yaşayışın, gözəl günlərin qədir-qiymətini bilmələrini tövsiyə edirəm.

Öyrənirəm ki, 20 yaşında Ərrəhman Allahverdiyevlə ailə həyatı quran müsahibim indiki yaşadığı Uzunoba kəndinə köçüb. Dövrünün zəhmətkeş insanlarından olan Ərrəhman kişi İkinci Dünya müharibəsində iştirak edib, müharibədən ayağından yaralanaraq qayıdıb. Həmin ağrılı-acılı dövrdə maddi və mənəvi sıxıntılar çəkən Gülxanım nənə böyük zəhmət hesabına qazandığı halal çörəklə övladlarını böyüdüb.

Uzunömürlülüyün sirri...

Tarixin müxtəlif dönəmlərində insanlar uzunömürlülüyün sirlərini açmağa çalışsalar da, buna müvəffəq olmayıblar. Elə bu səbəbdəndir ki, keçmişdən günümüzədək xalq arasında uzun ömür yaşamaqla bağlı çox sayda deyimlər, duyumlar gəlib çatıb. Dirilik suyu, həyat ağacı, uzunömürlülük meyvəsi ilə bağlı xalq arasında əfsanələr, əsatirlər, rəvayətlər, nağıllar el-el, oba-oba yayılıb. Lakin Gülxanım nənə üçün uzunömürlülüyün sirri başqadır. O deyir ki, uzun ömür sürməyinin başlıca səbəblərindən biri diyarımızın çox gözəl təbiətə, təmiz havaya, saf suya malik olmasıdır. Hər kəs uzun və sağlam ömür yaşamaq istəyirsə, gündəlik həyatında iki amilə diqqət yetirməlidir: daim hərəkətdə olmalı və sağlam qidalanmalıdır.

Övladları deyir ki, Gülxanım nənə gün ərzində çaya yox, daha çox su içməyə meyil göstərir. Səhər süfrəsindən bal, yağ, qaymaq, yumurta əskik olmur. Gənc yaşlarından yemək rasionunda dağlarımızda, düzlərimizdə bitən şəfalı bitkilərə geniş yer verən nənə indi də yazın gözü açılan kimi övladlarını həmin otlardan toplamağa göndərir. Nənə kiçik yaşlarından namaz qılıb oruc tutmasını da sağlamlığının əsas səbəblərindən hesab edir. Bu barədə deyir:

- Əbəs yerə deyilməyib ki, iş insanın cövhəridir, hərəkət harada, bərəkət orada. Yaşımın bu çağında da bir işin qulpundan yapışmağa çalışıram. Namazın, orucun da vaxtını keçirmirəm. Hər gün dan yeri sökülməmişdən yuxudan ayılır, səhərin təmiz havasından uduram. Yeməyimdə də təbii qidalara üstünlük verirəm. Düşünürəm ki, belə sağlam və gümrah qalmağımda yediyim yeməklərin də rolu böyükdür. Günümüzdə məktəbyaşlı uşaqların xəstələnməyi ilə bağlı tez-tez eşidirəm. Bizim dövrdə bu yaşda xəstələnmə çox nadir olardı. Fikrimcə, bu gün yayılan yoluxucu xəstəliklərin səbəbi də elə ən çox süni qidalardır. Övladlarıma da bacardıqca belə qidalardan istifadə etməməyi, bütün ərzaqları özlərinin hazırlamalarını məsləhət görürəm. Yeri gəlmişkən, onu da deyim ki, Uca Yaradan mənə 7 övlad, 25 nəvə, 18 nəticə bəxş edib. Çoxunun xeyir işində iştirak etmişəm. Tez-tez məni görməyə gəlirlər. Dövlət işçiləri də mənə tez-tez baş çəkir, qayğılarımla maraqlanırlar. Bütün bunlara görə dövlətimizə minnətdaram.

Həyat, yaşamaq elə gözəl hissdir ki, onu hansısa sözlə tam mənada ifadə etmək mümkün deyil. Ömür kitabının 114-cü səhifəsini yaşayan Gülxanım nənəyə daha firavan günlər arzulayaraq həmkarım Nail Əsgərovla onlardan ayrılırıq.

Yolboyu düşünürəm ki, Uca Yaradan tərəfindən yazılan ömür kitabı adlandırdığımız tale, qismət və alın yazısıdır. Təbii ki, əsərin nə zaman sona yetəcəyini də elə onu yaradan müəllif gözəl bilər.

Rauf Kəngərli,
Naxçıvan, AZƏRTAC

# Veteranlara qayğı ilə yanaşan müəllim

Səfərov Əmrah Əsəd oğlu 1957-ci ildə Qərbi Azərbaycanda Vedibasar Mahalının Xalisa kəndində anadan olmuşdur. 1964-1974-cü illərdə Xalisa kənd tam orta məktəbində təhsil almışdır. Daha sonra isə Bakı şəhərində 18 nömrəli texniki peşə məktəbində rəngsaz peşəsinə yiyələnib. 1975-1977-ci illər ərzində Sovet ordusu sıralarında hərbi xidmət etmiş, 1979-cu ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun qiyabi şöbəsinə daxil olmuş, 1984-cü ildə isə ali təhsilini bitirmişdir. 1981-ci ildən isə Vedibasar mahalının Arazdəyən kənd 8 illik orta məktəbində müəllimlik fəaliyyətinə başlamışdır. Dağlıq Qarabağ hadisələri ilə əlaqədar 1988-ci ildən ailəsi ilə birgə öz ata-baba yurdundan köçürülmüşdür. 3 ay Xocalı şəhərində yaşadıqdan sonra, ailəsi Ağcabədi rayonunun Arasbar kəndinə, 1989-cu ildə isə Bakı şəhərinə köçmüşdür. 1993-cü ildən Nizami rayonunda yerləşən R.Orucova adına 109 nömrəli tam orta məktəbdə Səfərov müəllimlik fəaliyyətini davam etdirmişdir. 1996-cı ildə



isə Əmrah Səfərovu Nizami rayon 2 saylı xüsusi əyani-qiyabi tam orta məktəbinə müəllim göndəriblər. Həmin ildən bu günə qədər həmin məktəbdə fəaliyyətini davam etdirir. 2000-ci ildə "Dövlətçilik" qəzetində redaktor vəzifəsində çalışmağa başlayıb. 2014-cü ildən Əmrah Səfərov işlədiyi məktəbin direktoru təyin olunub.

Əmrah Səfərov müəllimlik fəaliyyəti dövründə yeniyetmələrdə vətənpərvərlik, vətənə sevgi, torpağa bağlılıq hisslərinin aşılanması istiqamətində əlindən gələni əsirgəməyibdir. İctimai fəaliyyətində vətənpərvər müəllim veteranlara hər zaman diqqət qayğı ilə yanaşır, onların şagirdlərlə görüşlərini təşkil edir. Onun fəaliyyəti Respublika Veteranlar Təşkilatı və Xətai rayon Veteranlar Təşkilatı tərəfindən yüksək qiymətləndirilir. Xətai rayon Veteranlar Təşkilatının sədri Nəcibə Məhərrəmova Əmrah Səfərovun veteranlara göstərdiyi diqqət və qayğının hər kəsə nümunə ola biləcəyini vurğulayır.

Əmrah Səfərova fəaliyyətində uğurlar arzulayırıq.

AZƏRBAYCAN VETERANI

# Vatikan Roma Papası XII Piyin dövrünə aid gizli arxivləri açacaq

Papa Fransisk İkinci Dünya müharibəsi dövründə Roma Papası olan XII Piylə bağlı olan arxivləri gələn il martın 2-də tədqiqatçılar üçün açacağını bəyan edib.

AZƏRTAC İtaliyanın "ilmessaggero.it" saytına istinadla xəbər verir ki, yəhudi təşkilatlarının nümayəndələri pontifik XII Piyi 6 milyon yəhudinin kütləvi şəkildə məhv edildiyi Holokost faciəsinə göz yummasına görə qınayırlar.

Buna cavab olaraq Vatikandan olan tərəfdarlar XII Piyin nasistlər tərəfindən işğal edilən Avropada katoliklər üçün vəziyyəti ağırlaşdırmamaqdan ötrü gizli kömək etdiyini bildirirlər.

"Kilsə tarixdən qorxmur, əksinə onu sevir", – deyə Papa Frensisk Vatikan gizli arxivinin rəsmi şəxslərini qəbul edərkən söyləyib.

Qeyd edilib ki, ötən şənbə günü Roma Papası XII Piyin katolik kilsəsinə rəhbərlik etməsi üçün seçilməsinin 80 illiyi tamam olub. O, 1939-cu ildən 1958-ci ilədək Papa olub.

Asiman Əsədov
AZƏRTAC-ın xüsusi müxbiri


Il Messaggero.it

Papa Francesco apre gli archivi di Pio XII nel 2020: «Non abbiamo paura della Storia»

VATICANO

Lunedì 4 Marzo 2019 di Franca Giansoldati

CITTA' DEL VATICANO – «Ho deciso che l'apertura degli Archivi Vaticani per il Pontificato di Pio XII avverrà il 2 marzo 2020, a un anno esatto di distanza dall'ottantesimo anniversario dell'elezione al Soglio di Pietro di Eugenio Pacelli». Papa Francesco lo ha annunciato durante l'udienza ai membri dell'Archivio Segreto vaticano. Già nel 2006 Papa Benedetto XVI, aveva dato ordine di iniziare ad analizzare e catalogare le carte relative al pontificato pacelliano, in vista della beatificazione (anche se manca ancora il miracolo necessario), soprattutto per fugare una volta per tutte la leggenda nera che addita Pio XII come il pontefice che ha negato l'Olocausto e non ha ... salvare gli ebrei dalla razzia ...

202

## Strasburqda yəhudi xatirə abidəsi dağıdılıb

Fransanın Strasburq şəhərindəki qədim sinaqoqun yaxınlığında yəhudi xatirə abidəsi dağıdılıb.




AZƏRTAC BBC-yə istinadla xəbər verir ki, bu barədə şəhər rəhbərliyi məlumat verib. Abidə İkinci Dünya müharibəsi zamanı öldürülən yəhudilərin xatirəsinə qoyulmuşdu.

Qeyd edək ki, fevralın 19-da Alzas regionunda yəhudi qəbiristanlığında 80-ə yaxın qəbir dağıdılmışdı. Həmin gün ölkədə antisemitizm əleyhinə keçirilən kütləvi nümayişə Prezident Emmanuel Makron, Senatın sədri Jerar Larşe, Milli Assambleyanın sədri Rişar Ferran da qatılmışdılar. Yerli mətbuat 2018-ci ildə Fransada antisemitizm aktlarının artdığını bildirir.

## Birmingemdə partlamamış bomba aşkar edilib

Böyük Britaniyanın Birmingem şəhərində (Vest-Midlends qraflığı), "Steçford" ticarət kompleksində partlamamış bomba aşkar edilib.



"Steçford" ticarət mərkəzinə partlamamış bombanın aşkar edilməsi ilə əlaqədar polislər çağırılıb. Ticarət mərkəzinin ziyarətçiləri və yaxınlıqdakı evlərin sakinləri təhlükəsiz əraziyə təxliyə ediliblər. Hadisə yerinə istehkamçılar cəlb edilib".

Yerli KİV-lərin məlumatına əsasən, aşkar edilən bomba İkinci dünya müharibəsi dövrünə aiddir.

## Polşada İkinci Dünya müharibəsi zamanı qətl edilmiş yəhudilərin kütləvi məzarlığında eksqumasiya aparılması planlaşdırılır

Polşa hökuməti İkinci Dünya müharibəsi zamanı yəhudilərin kütləvi yandırılıb basdırıldığı ərazidə eksqumasiya ehtimalını nəzərdən keçirir.



AZƏRTAC xəbər verir ki, Polşanın Jedvabne şəhərində 1941-ci ildə ölkənin alman ordusu tərəfindən işğalı zamanı 300-dən çox yəhudi yandırılıb. İlkin eksqumasiya işləri 2001-ci ildə başlamışdı, lakin tezliklə dayandırılmışdı.

Polşanın Baş naziri Mateuş Moravetski "Polsat News" kanalına müsahibəsində bildirib ki, onun rəhbərlik etdiyi hökumət eksqumasiyanın bərpasını düşünür. Hazırda baş prokurorluğun bununla bağlı qərarını gözləyirik. Yerli siyasətçilərin bəziləri bunun İsraillə yaşanmış son gərginliyin yenidən alovlanmasına səbəb olacağını düşünürlər.

Aygün Əliyeva
AZƏRTAC-ın xüsusi müxbiri
Varşava

## Allah rəhmət eləsin

Respublika Veteranlar Təşkilatı və Masallı rayon Veteranlar Təşkilatı II Dünya müharibəsi iştirakçısı **Kişiyev Əlibala İsrafil oğlunun** vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Respublika Veteranlar Təşkilatı və Ağsu rayon Veteranlar Təşkilatı II Dünya müharibəsi iştirakçısı **Şıxıyev Əbülfəz Hacı oğlunun** vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Respublika Veteranlar Təşkilatı və Qaradağ rayon Veteranlar Təşkilatı II Dünya müharibəsi iştirakçısı **İsa İsmayıl oğlunun** vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Respublika Veteranlar Təşkilatı və İsmayıllı rayon Veteranlar Təşkilatı II Dünya müharibəsi iştirakçısı **Hüseynov İkram Gəray oğlunun** vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Respublika Veteranlar Təşkilatı Biləsuvar rayon Veteranlar Təşkilatının sədrinin həyat yoldaşı **İmanova Bahar Səmid qızının** vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Respublika Veteranlar Təşkilatının kollektivi iş yoldaşları Sara xanımın atası **Mübarizin** Qazaxıstan Respublikasında vəfatından kədərlənir, yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

*Baş redaktor*
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:** 1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
***Əlaqə telefonu:** 012 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 1 manat 20 qəpik*
*Tiraj: 1290*